# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XI SESSİYASI İCLASININ

# PROTOKOLU № 74

*Milli Məclisin iclas salonu.*
*5 oktyabr 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri **O.Əsədov** sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 103 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanunu (ikinci səsvermə).
2. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi haqqında (birinci oxunuş).
3. Azərbaycan Respublikası Milli Məclisinin 2018-ci il payız sessiyasının qanunvericilik işləri planı haqqında.

4. “Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi haqqında.

5. “Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Hökuməti arasında sərhəd nümayəndələrinin/sərhəd komissarlarının fəaliyyəti haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

6. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət Mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

7. “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair” Protokolun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

8. “Futbol oyunları və digər idman tədbirləri zamanı təhlükəsizlik, mühafizə və xidmət məsələlərinə vahid yanaşma haqqında Avropa Şurası Konvensiyası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

9. “İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi barədə.

10. “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Miqrasiya Orqanları Rəhbərləri Şurasının yaradılması haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. “Azərbaycan Respublikası ilə Əlcəzair Xalq De-

mokratik Respublikası arasında ekstradisiya haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanunun layihəsi haqqında.

12. "Azərbaycanın Milli Qəhrəmanının xüsusi fərqlənmə nişanını təsis etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

13. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

14. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

15. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

16. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

17. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

18. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

19. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

20. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

21. “Yaşıllıqların mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

22. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

23. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

24. “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

25. “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

26. “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi haqqında.

27. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

28. “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

29. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

30. “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

31. Azərbaycan Respublikasının “Diplomatik xidmətə verilən töhfəyə görə” medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

32. “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

33. “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

34. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

35. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

36. “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

37. “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan

Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

38. "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

39. "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

40. "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

41. "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə.

42. "Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə.

43. "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

44. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun la-

yihəsi haqqında.

45. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

46. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

47. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

48. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

49. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

50. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

51. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

52. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

53. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

54. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

55. "İnzibati icraat haqqında" Azərbaycan Respubli-

kasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

56. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

57. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

58. "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

59. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

60. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

61. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

62. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**46. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası**

**qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Aydın Mirzəzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**47. Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**48. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**49. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**50. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Siyavuş Novruzov, Bəxtiyar Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
| Lehinə | 100 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**51. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**52. "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**53. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Fəzail Ağamalı

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**54. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**55. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**56. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**57. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Fərəc Quliyev, Aqil Abbas, Araz Əlizadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**58. "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Qüdrət Həsənquliyev, Hikmət Məmmədov, Elmira Axundova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**59. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**60. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Fazil Mustafa, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**61. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Arif Rəhimzadə, Qənirə Paşayeva, İlham Əliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**62. “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 
Nəticə: Qəbul edildi

**Cari məsələlələrin müzakirəsi.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Zahid Oruc, Çingiz Qənizadə, Tahir Kərimli, Elşən Musayev, Şahin İsmayılov, Kamran Nəbizadə, Qənirə Paşayeva, Siyavuş Novruzov, Məlahət İbrahimqızı, Xanhüseyn Kazımlı

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*5 oktyabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri! Xahiş edirəm, qeydiyyatdan keçək.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
| İştirak edir | 98 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik. Gündəliyimizi keçən iclasda təsdiq etmişdik. Gündəlikdə qalan 46-cı məsələdən başlayırıq. Bir şeyi nəzərinizə çatdırım ki, bu 17 qanun layihəsinin hamısına birinci oxunuşda baxılır. Ona görə xahiş edirəm, birinci oxunuşa uyğun olaraq konseptual şəkildə münasibət bildirək. Çünki bu qanun layihələrinə biz 3 oxunuşda baxacağıq.

Gündəliyin 46-cı məsələsi. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! 2 qanun layihəsi cənab Prezidentin bir məktubu ilə gəlib. Bir məlumata diqqət yetirməyinizi xahiş edərdim. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında və Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Res-

publikası qanunlarının layihələri "Dövlət məhkəmə ekspertiza fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli Qanununun icrası məqsədi ilə hazırlanmışdır. Bu dəyişikliklər ekspertin rəy verməkdən imtina etməsi üçün əsasları dəqiqləşdirir. Bu əsaslar ekspertə təqdim edilmiş materialların kifayət qədər olmamasından və ya ekspertizanın keçirilməsi üçün onun biliklərinin kifayət qədər olmamasından ibarətdir.

Millət vəkillərindən bu qanun layihələrinə səs vermələrini xahiş edərdim, çünki Oqtay müəllim haqlı olaraq bildirdi ki, ikinci, üçüncü oxunuşlarda qanun layihələri ilə əlaqədar ətraflı müzakirələr aparılacaqdır. Millət vəkillərindən qanun layihələrinə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Aydın Mirzəzadə.

**A.Mirzəzadə.** Təşəkkür edirəm, Oqtay müəllim. Qanun layihələrini dəstəkləyirəm və səs verəcəyəm. Bu gün Azərbaycanda müəllim günüdür. Fürsətdən istifadə edərək mən bütün müəllimləri, pedaqoji sahədə çalışan bütün insanları ürəkdən təbrik edirəm. Azərbaycan cəmiyyəti öz müəllimləri ilə, təhsili ilə fəxr edir. Azərbaycan təhsilinə dövlət tərəfindən, cənab Prezidentimiz tərəfindən göstərilən qayğı öz müsbət nəticələrini verir. 15 il ərzində Azərbaycanda 5 min orta məktəbin 3 min 500-ü ya yenidən tikilib, ya da təmir edilib. Cənab Prezidentin regionlara səfərləri zamanı yeni məktəblərin açılışı, bir qayda olaraq, onun səfər proqramına daxil edilir.

Azərbaycanın orta məktəb məzunlarının, universitet məzunlarının uğurları göz qarşısındadır, o cümlədən bizim kollektivdə də, Milli Məclis deputatları arasında da müəllimlik fəaliyyəti ilə, pedaqoji fəaliyyətlə məşğul olanlar çoxdur. Mən ürəkdən təbrik edirəm, onlara uğurlar arzulayıram, on-

larla fəxr duyduğumuzu bildirirəm! Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elə biz də təbriklərə qoşuluruq. Xahiş edirəm, gündəliyin 46-cı məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.05 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 47-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 48-ci məsələ. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə. Birinci oxunuş. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! “Banklar haqqında” Qanunun 14 maddəsində, Mülki Məcəllənin isə 19 maddəsində dəyişikliklər nəzərdə tutulur. “Banklar haqqında” Qanunda dəyişikliklər aşağıdakılardan ibarətdir: bankların səhmdarlarının ümumi yı-

ğıncağının xüsusi əhəmiyyətli qərarlar qəbul etməsi nəzərə alınaraq, ümumi yığıncaqlarda səsvermə hüququ olan bütün səhmlərin azı 60 faizinin sahibi olan səhmdarlar iştirak etdikdə yığıncağın səlahiyyətli sayılması; növbədənkənar ümumi yığıncaqların xüsusi hallarda çağrılmasını nəzərə alaraq və qərarların qəbul edilməsinin operativliyini təmin etmək məqsədi ilə səhmdarların növbədənkənar yığıncağının onun çağırılması tələbinin daxil olduğu gündən etibarən 30 gündən sonra keçirilməsinin mümkünlüyü; Mülki Məcəllədə edilmiş son dəyişikliklərə uyğun olaraq Müşahidə Şurası tərəfindən Audit Komitəsi üzvlərinin təyin və azad edilməsi, Audit Komitəsinin əsasnaməsinin təsdiq edilməsi; bank praktikasında təşəkkül tapmış təcrübə və beynəlxalq təcrübə nəzərə alınaraq, bankların icra orqanının səlahiyyətlərini müqaviləyə əsasən başqa hüquqi şəxsə və ya fərdi sahibkara verə bilməməsi halları; Mülki Məcəlləyə uyğun olaraq, həmçinin səhmdarlar tərəfindən Müşahidə Şurası üzvlərinin fəaliyyətinin ən azı 3 ildən bir qiymətləndirilməsini təmin etmək məqsədi ilə Müşahidə Şurası üzvlərinin 3 il müddətinə təyin edilməsi; Müşahidə Şurasının səlahiyyət müddətinə uyğunlaşdırmaq məqsədi ilə bankın idarə heyətinin və Audit Komitəsinin üzvlərinin 3 il müddətinə təyin edilməsi; qanunda mövcud olan müddəaları nəzərə alaraq, bankların könüllü və məcburi ləğvinin Mülki Məcəllədən əlavə, "Banklar haqqında" Qanunun tələbləri də nəzərə alınmaqla həyata keçirilməsi.

Bu dəyişikliklər kifayət qədər məqbul dəyişikliklərdir. Mən əminəm ki, bizim komitə ikinci və üçüncü oxunuşlarda bu məsələləri daha ətraflı müzakirə edəcək. Konseptual baxımdan bu dəyişikliklər bankların fəaliyyətini canlandırmaq üçün kifayət qədər məqbuldur. Ona görə də

millət vəkillərindən bu qanun layihəsinə də səs verməlləri-ni xahiş edərdim.

**Sədrlik edən.** Siz 2 qanunu birlikdə dediniz. Yəni millət vəkilləri bilsinlər. Əgər başqa bir təklif yoxdursa, qanun layihələrinə münasibət bildirək. 48-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

49-cu məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

50-ci və 51-ci məsələlər bir zərfdə gəlib. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri*.

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri!  2016-cı ildə cənab Prezident tərəfindən Azər-

baycanda ipoteka kreditləşdirməsinin bəzi məsələləri haqqında fərman imzalanmışdır. Fərmanın məqsədi bu prosesi daha da asanlaşdırmaq, sadələşdirmək olmuşdur. Məhz bu məqsədlə Mülki Məcəllənin bir sıra maddələrinə əlavə və dəyişikliklər təklif olunur. Söhbət ipoteka kağızının qeydiyyatından, dövriyyəsinin elektron qaydada təşkilindən və ipoteka qoyan tərəfindən imzalanmasından, notariat qaydasında təsdiqlənməsindən və digər bütün prosedurların elektron qaydada həyata keçirilməsindən gedir. Bu, ipoteka krediti alınmasının, vətəndaşla münasibətlərin sadələşdirilməsinə və effektivliyinə xidmət edir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Ziyad müəllim, əlavəniz yoxdur ki?

**Yerdən.** (*Eşidilmir.*)

**Sədrlik edən.** Siyavuş Novruzov buyursun.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Sədr. Mən də bu qanun layihələrinin hər ikisinə səs verəcəyəm. Doğrudan da, Azərbaycanda ipoteka  tətbiq olunandan bəri xeyli sayda insanlar ondan bəhrələnirlər. Xüsusilə cənab Prezidentin seçki dövründə, sonrakı dövrdə ipoteka sahəsində sənədləşdirmənin sadələşdirilməsi ilə əlaqədar qəbul etdiyi qərarlar ipoteka almaq imkanlarını xeyli yaxşılaşdırıb. Bu qərarlar nəinki Bakı şəhərində, həm də respublikamızın digər ərazilərində, rayonlarında gənclərin ipoteka kreditləri vasitəsi ilə mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına xidmət edir.

Oqtay müəllim, mən Sizdən icazə alıb bir məsələyə də toxunmaq istəyirəm. Keçən iclasımızın davamı olduğu və qanun layihəsinə əlavə və dəyişikliklər olmadığı üçün əgər icazə versəniz, 1–2 məsələyə toxunmaq istəyirdim. Bu gün ictimaiyyəti narahat edən bir məsələ var. Bu, xüsusilə

son dövrdə bir qrup insanın Dağlıq Qarabağ adı altında müxtəlif kütləvi aksiyalar keçirməsi, Qarabağla heç bir bağlılığı olmayan, heç bir cəmiyyəti, heç bir qurumu təmsil etməyən və ümumilikdə insanların dəstəkləmədikləri təşkilatların, partiyaların Azərbaycanın əsas problemi ilə bağlı məsələni ortaya atması və bununla da həm erməni dəyirmanına su tökməsi, həm də Azərbaycan xalqında müəyyən çaşqınlıq yaratmağa xidmət göstərməsidir.

Bilirsiniz ki, Azərbaycan Respublikasının Prezidenti Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün danışıqlarda Azərbaycanın ərazi bütövlüyü məsələsini əsas şərt kimi qoyur. İstər BMT-də, istər ATƏT-də, istər Avropa Şurasında, istərsə də digər beynəlxalq təşkilatlarda və ayrı-ayrı dövlət başçıları ilə görüşlərdə Azərbaycanın işğal olunmuş ərazilərinin, o cümlədən azərbaycanlıların dədə-baba torpaqları olan, vaxtı ilə verilən ərazilərin Azərbaycanın olması və azərbaycanlıların oradan köçürülməsi, onlara işgəncələr verilməsi, Xocalı soyqırımı kimi bir soyqırımın törədilməsi barədə məlumatları ictimaiyyətin diqqətinə çatdırır. Azərbaycan cəmiyyəti də yekdil şəkildə öz Prezidentini dəstəkləyir. Çünki cənab Prezident Dağlıq Qarabağla bağlı aparılan danışıqlar barəsində ictimaiyyət qarşısında daim hesabat verir. İstər Bakı şəhərində keçirilən forumlarda, istərsə də rayonlarda, bizim ən ucqar kəndlərimizdə, rayonlarımızda fermerlərlə görüşlərdə də cənab Prezident bununla bağlı hesabatlar verir. Hər görüşdə Qarabağ məsələsinə toxunur və ictimaiyyətə bu bəllidir. Bunun nəticəsi olaraq da ictimaiyyət keçirilən Prezident seçkilərində cənab Prezidenti seçərək yekdilliklə ona səlahiyyət verir ki, bu hüquq cənab Prezidentə məxsusdur.

İndi 90-cı ilin təfəkküründə olan insanlar başlayıb ki,

biz mitinq keçirməliyik, xarici təşkilatlar görsünlər ki, Prezidentə təzyiq var. Guya belə çıxır ki, cənab Prezident, Azərbaycan iqtidarı hansısa güzəştlərə getməyə razıdır və ictimaiyyətin təzyiqi nəticəsində bu güzəştlərə getmir. Bu nə düşüncənin, nə təfəkkürün məhsuludur? Ən kəskin mövqeni, biz şahidi olmuşuq ki, cənab Prezident ortaya qoyubdur. Bu məsələyə ən kəskin münasibəti cənab Prezident ifadə edibdir. Ona bu səlahiyyəti Azərbaycan xalqı verib. Azərbaycan xalqının verdiyi səlahiyyət, verdiyi mandatla da o proseslər davam etdirilir. Burada nə təzyiqdən söhbət gedə bilər?

Qarabağ bütün azərbaycanlılarındır, bütün Azərbaycanındır, dünya azərbaycanlılarınındır. Azərbaycan həm danışıqlarda, həm də ordunun gücləndirilməsində, ordunun maddi-texniki bazasının yaxşılaşdırılmasında və digər məsələlərdə bunu həmişə sübut edibdir. Elə bu il keçirilən 2 parad buna nümunədir. Ən müasir silahların nümayiş olunması və göstərilməsi bilavasitə mesajdır ki, biz bu siyasətə tərəfdarıq. Əgər bu məsələ sülh yolu ilə həll olunmayacaqsa, biz bunu digər yollarla da həll etməyə hazırıq. Bundan kimlərsə sui-istifadə edirlər. Mən Avropada bir qrup şəxsin çağırışlarını, burada oturan digərlərinin onlara dəstək verməsini nəzərdə tuturam. Ən acınacaqlı məsələ 1 milyondan artıq qaçqınımıza müxtəlif mənəvi terror edilməsidir. O bölgədən olan insanlara deyirlər ki, siz niyə çıxmırsınız, niyə mitinqə gəlmirsiniz. Bilirsiniz, Qarabağ Azərbaycanındır, bütün Azərbaycan vətəndaşlarınındır. Birinci Qarabağ müharibəsində hər bir azərbaycanlı döyüşüb, hər bir azərbaycanlı mübarizə aparıbdır və bundan sonra da belə olacaqdır. Burada mənim-sənin məsələsi ola bilməz. Bununla kimlərisə terror etməyə heç kəsə hüquq verilməyibdir. O insanlar bizim ən

çox əziyyət çəkən, evini-eşiyini itirən, bütün hüquqlarından məhrum edilən 1 milyon qaçqınımızı təhdid etməklə nəyə xidmət edirlər?

Bu gün qaçqınların mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün Prezident tərəfindən nə qədər binalar, evlər, mənzillər tikilir. Təbii ki, bu tikililər hamısı qalacaq, onlar öz yurd-yuvalarına qayıdacaqlar. Amma bununla yanaşı, mən hesab edirəm ki, heç kəsə onları mənəvi terrorla qarşı-qarşıya qoymaq və onlar barəsində hər hansı aşağılayıcı fikirlər ifadə etmək hüququ verilməyibdir. Öz qaçqını barəsində belə fikirlər söyləyənlər, yaxud bir regionun insanlarına qarşı bu cür ifadələrdən istifadə edənlər ən aşağı səviyyəli insanlardır.

Mən hesab edirəm, biz, bütün Milli Məclis üzvləri, bilirik ki, Dağlıq Qarabağ münaqişəsi hər hansı futbol meydançasında keçirilən mitinqlə həll olunası məsələ deyil. Dağlıq Qarabağ məsələsi Ali Baş Komandanın, Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında beynəlxalq hüquq çərçivəsində və Azərbaycan qanunlarının imkan verdiyi yolla, hüquqi yolla həll olunacaqdır. Biz istəyirik, torpaqlarımız sülh yolu ilə azad edilsin. Edilməyəcəksə, hərb yolu ilə azad olunacaq. Biz hər birimiz bu yolda bir əsgərik. Görək o çağırış edənlərin özlərinin, övladlarının biri gəlib bu prosesdə iştirak edəcəkmi? Necə ki, vaxtı ilə "Şuşa getsə, başıma güllə vuracağam", "bir maşın erməni başı gətirəcəyəm" deyənlər, 20 yanvarda keşiş Qapon rolunu oynayanlar bu gün Dağlıq Qarabağla bağlı mitinqlərdə ön sırada dayanırlar. Çünki bunlar həmişə bulanıq suda balıq tutmağa çalışırlar və Azərbaycanın ərazi bütövlüyü bunlar üçün əsas şərt deyil. Bunlar üçün əsas şərt siyasi oyunlarda oyunbazlıq etməkdir. Azərbaycan xalqı bunları görür və onları boy-

kot edir. Azərbaycan qaçqını bu insanları ona görə boykot edir ki, onların əməllərinin nəticəsində bu gün qaçqın düşüblər, məcburi köçkün vəziyyətindədirlər. Onların hər biri seçkidə gəlib öz Prezidentinə səs verib, ona dəstəyini göstəribdir. Ona görə o oyunbazlar bunu başa düşsünlər, gedib öz işləri ilə məşğul olsunlar, Dağlıq Qarabağ adı altında azərbaycanlıların, bütün Azərbaycan vətəndaşlarının heysiyyatı ilə oynamasınlar. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Görürəm, müzakirələrdə iştirak etmək istəyən çoxdur. İndi gündəlikdən danışaq qurtaraq, tez qurtarsaq, axırda yarım saat müzakirə də edərik. Xahiş edirəm, gündəlik ətrafında. Bəxtiyar Əliyev.

**B.Əliyev.** Təşəkkür edirəm, cənab Sədr. Mən də təklif olunan qanun layihələrinə birinci oxunuşda səs verəcəyəm. Hesab edirəm ki, bunlar olduqca zəruridir və biz bunları qəbul etməliyik. Ona görə mən də səs verəcəyəm. Amma Siz qeyd etdiniz, əlavə vaxtımız qalarsa, müzakirə edərik. Amma icazə versəydiniz, mən də məcburi köçkünlərin seçdiyi deputat kimi Siyavuş müəllimin toxunduğu həssas məsələ ilə bağlı iki faktı diqqətə çatdırmaq istəyirdim. Əvvəla, onu qeyd etmək istəyirəm ki, vaxtilə ümummilli lider Heydər Əliyev tərəfindən bu siyasət doğru müəyyən edilib və indi də uğurla həyata keçirilir. Vaxtilə bu parlamentdə ümummilli lider Dağlıq Qarabağla bağlı təklif olunan 3 layihənin müzakirəsi ilə bağlı Azərbaycan xalqına, bütün siyasi qüvvələrə müraciət etdi və onları parlamentə dəvət etdi. Bəziləri gəlmədilər, öz mövqelərini burada bildirmədilər. Amma bu gün görürsünüz ki, onların ayrı-ayrı yerlərdən səsləri gəlir. Nə üçün taleyüklü məsələ bu parlamentdə müzakirə olunanda gəlib mövqe, fikir bildirmədilər? Amma indi nələrsə danışırlar. Bəziləri də gəldilər, hansı mövqe burada nümayiş etdirdi-

lər, bütün Azərbaycan xalqı gördü.

Mən ikinci bir faktı qeyd etmək istəyirəm. Cənab Prezident İlham Əliyev vaxtilə Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik edəndə bu siyasət onun rəhbərliyi altında açıq-aydın, israrla davam etdirilirdi. Yürüdülən bu siyasət nəticəsində 2005-ci ildə Avropa Şurasında çox ciddi bir qətnamə qəbul edildi. Həmin qətnamədə qeyd edilirdi ki, Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon Ermənistan tərəfindən işğal olunub və bu gün Dağlıq Qarabağ bir qrup separatçının əlindədir. Azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırımı həyata keçirilib.

Budur, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət. Amma gəlin görək, başqaları ortalığa nə qoyacaqlar? Heç olmasa, bir parça kağız gətirsinlər ki, hansısa bir qeyri-hökumət təşkilatı ilə beynəlxalq aləmdə müzakirə aparıblar, Azərbaycan xalqının haqq səsini orada ifadə ediblər və dəstək alıblar. Hesab edirəm ki, bu gün cənab Prezidentin rəhbərliyi altında azərbaycançılıq uğurla inkişaf edir. İstər Naxçıvan istiqamətində, istərsə də işğal olunmuş Dağlıq Qarabağ ətrafındakı yeddi rayonla bağlı ərazi bütövlüyümüzün bərpası istiqamətində ordunun keçirdiyi əməliyyatlar bir daha onu göstərir ki, Azərbaycan öz ərazilərini heç vaxt heç kimə güzəştə getməyəcək. Amma dövlət siyasəti ondan ibarətdir ki, bir nəfər də olsun azərbaycanlının qanı tökülməsin, biz ərazi bütövlüyümüzün təminatına sülhlə nail olaq. Əgər bu mümkün olmasa, əlbəttə ki, torpaqlarımız hərb yolu ilə düşməndən azad ediləcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Xahiş edirəm, gündəliyin 50-ci məsələsinə münasibət bildirək.

**Səsvermənin nəticələri** (saat 12.24 dəq.)

| | |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 51-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 52-ci məsələsi "Lotereyalar haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Məlum olduğu kimi, Azərbaycan Respublikasında lotereyaların təşkili və keçirilməsi qaydalarını, lotereya təşkilatçılarının və iştirakçılarının hüquq və vəzifələrini müəyyən edən "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununun 2004-cü il martın 5-də qəbul edilmişdir. Bu müddətdə bir sıra yeni elektron texnologiyalar tətbiq edilmiş, obyektiv olaraq bir sıra dəyişikliklər meydana çıxmışdır. Ona görə də Qanunun mövcud vəziyyətə uyğunlaşdırılması zərurəti yaranmışdır. Hazırda Azərlotereya Açıq Səhmdar Cəmiyyətinin rəsmi veb saytı

və mobil telefonlarında işlənən mobil əlavələrin vasitəsilə minimum vaxt sərf etməklə lotereya biletini əldə etmək mümkün olmuşdur. Eyni zamanda, əlavə vaxt sərf etmədən uduşların birbaşa uduş sahibinin bank kartına maksimum qısa müddət ərzində köçürülməsi təmin olunmuşdur.

"Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi lotereya oyunlarının daha şəffaf olmasına, lotereyaların keçirilməsində insan amilinin minimuma endirilməsi üçün elektron lotereya oyunlarının təşkili və satışının həyata keçirilməsinə, dövlət büdcəsinə ödənilən vəsaitlərin artırılmasına yönəlmişdir. Qanun layihəsində həmçinin lotereyaların, o cümlədən elektron lotereyaların təşkilinə və keçirilməsinə nəzarət mexanizmlərinin, bu sahədə hüquqi bazanın daha da təkmilləşdirilməsi, lotereya təşkilatçısının təsisçilərinə dair tələblərin, lotereyada iştirak edən şəxslərin yaş məhdudiyyəti ilə bağlı müddəaların qanuna daxil edilməsi, elektron lotereyaların "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət qeydiyyatına alınmış elektron informasiya sistemi vasitəsilə həyata keçirilməsi nəzərdə tutulur. Bütövlükdə bu dəyişikliklər konseptual xarakter daşıdığı üçün millət vəkillərindən qanun layihəsinə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən**. Əgər başqa fikir yoxdursa, birinci oxunuşda səsə qoyaq.

| **Səsvermənin nəticələri** | (saat 12.27 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir

Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 53, 54-cü məsələləri də bir zərfdə gəlib. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun. Cənab Sədr, hörmətli həmkarlar! Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində yerin təkinin qorunması və istifadəsi qaydalarını pozmağa görə həm cinayət məsuliyyəti, həm də inzibati məsuliyyət nəzərdə tutulur. Qanunvericilik subyekti tərəfindən təqdim olunan layihə bu məsələnin aktuallığını nəzərə alaraq, yerin təkinin qorunması və istifadəsi qaydalarının pozulmasına görə məsuliyyətin sərtləşdirilməsini təklif edir. Hesab edirəm ki, bu tamamilə yerində və məqsədəuyğundur. Dispozisiya olduğu kimi qalır, cərimə formasında sanksiyalar isə artırılır. Cinayət Məcəlləsində nəzərdə tutulan cərimə sanksiyası iki dəfə, İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan cərimə sanksiyası isə bir sıra hallarda hətta üç dəfə sərtləşdirilir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən**. Fəzail Ağamalı.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli millət vəkilləri! Təbii ki, mən qanun layihəsinə səs verəcəyəm. Lakin bu qanun layihəsi ilə bağlı mən bir məsələni, hörmətli Sədr, diqqətinizə çatdırmaq istəyirəm və düşünürəm ki, bununla da bağlı Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə müəyyən əlavələr edilməsinə ciddi ehtiyac var.

Bir neçə gün bundan öncə Bakının Binə qəsəbəsində avtobus qatara çırpılaraq iki nəfərin həyatına son qoydu, çoxlu sayda insanlar yaralandı. Əlbəttə, bu hadisə bizim hər birimizi kədərləndirdi. Bu, birinci hadisə deyil, bu və buna bənzər hadisələr bir neçə dəfə baş verib və hər birimizə bəllidir ki, Bakının küçələrində avtobuslar kifayət qədər ciddi problemlər yaradırlar. Bu, hər birimizə bəllidir. Əlbəttə, sürücü öz cəzasını, ümidvaram ki, alacaqdır, buna şübhəm yoxdur. Lakin çox təəssüf edirəm ki, o sürücüləri işə qəbul edən və ictimai nəqliyyatı tənzimləyən, belə bir səlahiyyəti özündə daşıyan özəl şirkətlərə hər hansı bir cəza, hər hansı bir cinayət işi tətbiq olunmur.

Çox təəssüf edirəm ki, həm də bəzi avtobuslarda, marşrutlarda gediş haqqı kartla həyata keçirildiyi halda, bir çox hallarda bu hələ də yerinə yetirilmir və bunun özü də ciddi problemlər yaradır. Ona görə də mən hörmətli həmkarımız Əli müəllimə təklif edərdim ki, bu məsələ ilə bağlı gələcəkdə Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə müəyyən dəyişikliklər nəzərdə tutulsun. Həmin sürücüləri işə götürən və onların üzərində nəzarət funksiyasını yetərincə yerinə yetirməyən şirkətlərin də məsuliyyətini artırmaq üçün Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə konkret müddəalar əlavə olunsun.

Hörmətli Sədr, burada bir məsələ qaldırıldı, təbii ki, bununla bağlı fikir söyləməmək mümkün deyil. Mən Siyavuş müəllimin söylədiyi fikirlərlə tamamilə şərikəm. Əlbəttə, bu məsələ hər birimizi narahat edir və düşünürəm ki, həmin mitinq avantürist bir mitinq idi. Əgər onlar ölkə Prezidenti ilə, dövlətlə bərabər olduqlarını orada ifadə etsəydilər, yəqin ki, bu, başa düşülən olardı. Lakin yaranmış vəziyyətdən istifadə eləyib özlərini reabilitasiya etmək, vətənpərvər kimi göstərmək istəyənlər, əslində

Azərbaycanda qarışıqlıq yaratmağa, xarici himayədarlar vasitəsilə burada problemlər törətməyə cəhdlər göstərirlər. Düşünürəm ki, Azərbaycan vətəndaşı olaraq, bizim hər birimiz dövlətimizlə, cənab Prezidentimizlə bərabər olub bu problemin həllinə öz töhfəmizi verməliyik. Bu cür avantürist mövqelərə və addımlara qarşı özümüzün kəskin və qəti mövqeyimizi ifadə etməliyik. Çox sağ olun.

**Sədrlik edən**. Sağ olun. Xahiş edirəm, gündəliyin 53-cü maddəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 54-cü məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 55-ci məsələ, “İnzibati icraat haqqında” Qanunda dəyişiklik edilməsi barədə. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Sağ olun. Hörmətli millət vəkilləri, bildi-

yiniz kimi, “İnzibati icraat haqqında” Qanunun 4-cü maddəsi inzibati orqanlarla bağlı həm də səlahiyyət və aidiyyət məsələsini həll edir. Məsələ burasındadır ki, bir sıra hallarda torpaqların istifadəsi, icarəsi və mülkiyyətə verilməsi məsələləri ilə bağlı yerli icra hakimiyyəti orqanları ilə müvafiq icra hakimiyyəti orqanları arasında mübahisə yarananda və bunun məhkəmə qaydasında həlli məsələsi gündəmə çıxanda bu kimi mübahisələr baxılmamış qalırdı, çünki aidiyyəti məsələ öz həllini tapmamışdı. 4-cü maddəyə təklif olunan əlavə məhz bu cür sərəncamların məhkəmələrdə mübahisələndirilməsinin aidiyyatını və mübahisələndirilməsinin tənzimlənməsini həll edir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən**. Başqa təklif yoxdursa, xahiş edirəm, münasibətinizi bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 56-cı məsələ “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Qanunda dəyişikliklər edilməsi haqqındadır. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, hər il Azərbaycanın doing-business hesabatında statistik göstəricilərdə yeri ilbəil yaxşılaşır və bu, Azərbaycanda iqtisadi mühitin daha da yaxşılaşmasından xəbər

verir. Həmin hesabatın bir bölməsi biznesə başlama indikatorudur. Bütün ölkələrdə biznesə başlamaq, yəni hüquqi şəxsi qeydiyyatdan keçirməsi ilə bağlı müddəa çox vacibdir. Bu sahədə də son illər, həqiqətən, çox ciddi işlər görülüb. Hazırda hüquqi şəxsin biznesə başlaması üçün qeydiyyatdan keçmədə çox əlverişli şərait yaradılıb. Amma orada bir məsələ, hüquqi şəxslərin qeydiyyatı zamanı qanuni təmsilçi barədə qeydiyyat orqanına yanlış məlumatın verilməsinin qarşısının alınması məsələsi həllini tapmamışdı. Bax, bu əlavələr məhz həmin məsələnin həllinə yönəlib. Kiçik də olsa, qeyd etdim, bizim beynəlxalq iqtisadi qurumlarda statistik göstəricilərin yaxşılaşdırılması baxımından əhəmiyyətli bir düzəlişdir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən**. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

57-ci məsələ. “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, biz yeni nəsil şəxsiyyət vəsiqəsinin tərtib olunması, hazırlanması və qüvvəyə minməsi ilə bağlı qanunu qəbul etmişdik. Onun qüvvəyə minməsi məsələsi bir qədər

uzanırdı və xatırlayırsınızsa, bir müddət öncə biz onun bu il sentyabrın 1-dən qüvvəyə minməsi ilə bağlı qərar qəbul etdik.  Bu proses artıq icra mexanizmindədir. Amma eyni zamanda, “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Qanuna uyğun olaraq, mövcud vəziyyət bütün vətəndaşlardan əl, barmaq izlərinin götürülməsini tələb edir. Çünki bu müasir bir üsuldur. Təbii ki, bu, 15 yaşına qədər olan şəxslərə şamil olunmamalıdır  və məhz buna görə də “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Qanunda belə bir istisna qoyulur. Yəni 15 yaşı tamam olmamış vətəndaşlardan əl, barmaq izləri götürülmür. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən**. Fərəc Quliyev.

**F.Quliyev**. Təşəkkür edirəm, cənab Sədr. Əvvəla, mən bu qanun layihəsini hazırlayan bütün orqanlara, o cümlədən Əli müəllimin rəhbərlik elədiyi komitəyə, Sizə və Milli Məclisin şöbələrinə təşəkkür edirəm ki, yeni nəsil şəxsiyyət vəsiqəsi ilə bağlı  bu qədər çalışmalı olublar. Təbii ki, müvafiq icra strukturları da zəhmət çəkiblər. Biz parlamentin 100 illiyi ərəfəsindəyik. Bunu nəzərə alaraq, yaxşı olar ki, biz həm də soyadlar ilə bağlı bir az məcburi xarakterli dəyişiklik edək. Mən bu məsələni bir dəfə də qaldırmışdım. Göründüyü qədər, soyadların könüllü şəkildə dəyişdirilməsi  məsələsinin həlli mümkünsüzdür. Əlbəttə, soyadların dəyişdirilməsi üzərində qadağa yoxdur, amma bu kütləvi xarakter daşımır.

Məncə, yeni nəsil kimliklərdə mütləq yeni soyadlar yazılmalıdır. Yeni soyadların təsbit olunması çox vacib şərtlərdən biridir. İndi nə 37-ci ildir, nə Stalin var, nə də o rejim var. Hər şey bizim öz iradəmizdən asılıdır və biz xalqımıza qarşı olan bu haqsızlığı aradan qaldıra bilərik.

Ən azından, yeni nəsil vəsiqələrdə adamların könüllü şəkildə yeni soyadlar götürmələrini təmin etmək lazımdır. Bu olmazsa, müvafiq icra strukturu tərəfindən təkliflər verilsin ki, filan soyadı götürmək lazımdır. Yəni bütün hallarda soyadların məcburi qaydada dəyişdirilməsi yaxşı olardı. Məncə, bu həm də mənəvi bir məsələ olardı. Parlamentin 100 illiyi ərəfəsində parlament tərəfindən qanun layihəsində belə bir dəyişiklik edilməsi, hesab edirəm ki, uğurlu bir variant olardı. Əgər mümkün olarsa, bu dəyişikliyə də baxılardı. Təşəkkür edirəm.

**Sədrlik edən**. Aqil Abbas.

**A.Abbas**. Təşəkkür edirəm, hörmətli Oqtay müəllim. Amma mən Fərəc müəllimin düşündüyü kimi düşünmək istəmirəm. İnsanların soyadını məcburi qaydada dəyişdirmək olmaz. Özləri tədricən soyadlarını dəyişəcəklər. Amma məcbur elə ki, soyadını dəyiş, axı insanların bir nəsil şəcərəsi də var. Biri Abbasovdur. Bizim kənddə 5 min adamın soyadı Abbasovdur. Bütöv bir nəsildir. Bunların hamısını dəyişdirib, Abbas, Abbaszadə... edəcəksən? Bu yavaş-yavaş ola bilər. Amma insanların məcburi qaydada soyadını dəyişmək, demokratik ölkədə belə bir şey olmaz. Mən dəyişmişəm, eləmişəm Abbas. Eləmi? Əvvəldən də mən bu soyadla yazırdım. Amma bütün nəslin soyadını dəyişmək, insanları məcbur etmək, mənə elə gəlir ki, düz deyil. Mənim də bu barədə müəyyən fikirlərim var. Belə şeyi məcbur etmək olmaz. İnsanlar bunun üçün yavaş-yavaş maarifləndirilməlidir.

Üzeyir Hacıbəyovun soyadı həmişə Hacıbəyov olub. İmzası da Üzeyir Hacıbəyovdur. İndi deyir və yazırlar Üzeyir Hacıbəyli. Bu nə deməkdir? Özümüzdən başlamışıq hamının soyadını dəyişməyə. Keçmişdə Hacıbəyov olub, indi Hacıbəyli olub. Yəni o mənada deyirəm ki, belə

şeyi məcburi qaydada etmək olmaz. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Əli müəllim, nəyə isə cavab vermək istəyirdin? Mən dedim, bəs Fərəc müəllimə sual verəcəksən ki, özün niyə hələ dəyişməmisən? Buyur, Əli müəllim.

**Ə.Hüseynli.** Cənab Sədr, mən məlumat üçün bildirmək istəyirdim ki, bu məsələ, əslində həllini tapıb. Bir neçə il bundan əvvəl biz qanunvericilikdə dəyişiklik etmişik və indi yeni nəsilin, yəni yeni doğulan nəsilin seçimi milli soyadların fərqli sonluqlarından ibarətdir. Bu məsələ həllini tapıb. O ki qaldı köhnə nəsil üçün, burada, əlbəttə ki, seçim sərbəstdir. İstəyənlər, cənab Sədr, Siz dediyiniz kimi dəyişir və hesab edirəm ki, indiyə kimi mövcud olan soyadların sonluqlarına da, sadəcə, hörmətlə yanaşmaq lazımdır. Amma yeni nəsillə bağlı məsələ artıq həllini tapıb. Bu, müzakirə mövzusu deyil. Müstəqil dövlətin, yeni nəslin, gənc nəslin seçimi fərqli, özlərinin istədikləri, ancaq milli sonluqlu soyadlardır. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Araz Əlizadə.

**A.Əlizadə.** Çox sağ olun, möhtərəm Sədr! Mən bir şeyi demək istəyirəm ki, əlbəttə, heç kəsin soyadını məcburi dəyişmək mümkün deyil. Mən ayrı şeyi demək istəyirəm. Bizdə pasportlarda, xarici pasportlarda nədənsə, soyadlar səhv yazılır. Məmmədov avtomatik olub Mamadov, Məmmədzadə olub Mammadzada. Bu, çox eybəcər səslənir və bizim dilimizin nə orfoepiyasına, nə də fonetikasına uyğun deyil. Ona görə də mənə elə gəlir ki, bunu dəyişmək lazımdır. Bizim çoxlu xarici dil bilən mütəxəssislərimiz var, o cümlədən xarici dövlətlərdə. Bizim soyadlarımız necə səslənirsə, o cür də yazılmalıdır. Məsələn, mən böyük bir mübarizə ilə nail oldum ki, mənim xarici pasportumda ingiliscə yazılsın Alizade, amma yazılırdı Alizada.

Mənim Alizada soyadım yoxdur. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, gündəliyin 57-ci məsələsinə səs verək.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

58-ci məsələ. "Pasportlar haqqında" Qanunda dəyişiklik edilməsi barədə. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Cənab Sədr, hörmətli millət vəkilləri, təqdim olunan layihə diplomatik pasportları daşıyacaq şəxslərin əhatəsini bir qədər genişləndirir. 7–8-ci əlavə bəndlərə diqqətlə baxsaq, görərik ki, tamamilə düzgün olaraq təklif edilir ki, bizim xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərin nəzdində təsis olunan hərbi attaşelik aparatının zabitləri və beynəlxalq təşkilatlardakı hərbçi nümayəndələrimiz və onların müavinləri bura daxil edilsin. Məncə, bu çox düzgün bir təklifdir.

İkincisi, müvafiq icra hakimiyyəti orqanının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı nümayəndəlikləri. Bilirsiniz ki, Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsi ilə bağlı son dövrlər bizim bir sıra xarici ölkələrdə müvafiq icra hakimiyyəti orqanlarının nümayəndəlikləri olan yeni qurumlar yaradılır. Onlar faktiki olaraq diplomatik statusun daşıyıcılarıdır. Yəni siyasi fəaliyyətlə

məşğul olmasalar da, iqtisadi əlaqələrə cavab versələr də, onlar diplomatik fəaliyyətlə məşğuldurlar. Bu baxımdan, mən diplomatik pasportların bu iki təbəqədən olan şəxslərə verilməsini təqdir edirəm və həmkarlarımdan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, cənab Sədr. Əlbəttə, mən də hesab edirəm ki, həmin kateqoriyadan olan şəxslərə diplomatik pasportlar verilməlidir. Amma eyni zamanda, Milli Məclisdə mən və digər millət vəkilləri zaman-zaman bu məsələni qaldırıb və Mərkəzi Seçki Komissiyasının sədri hörmətli Məzahir Pənahov tərəfindən də bizim Dövlət quruculuğu və hüquq siyasəti komitəsinə rəsmi məktub göndərilib. Məsələ Mərkəzi Seçki Komissiyasının üzvlərinə də diplomatik pasportlar verilməsi ilə bağlıdır.

Oqtay müəllim, fikrimi bir daha onunla əsaslandırıram ki, biz hətta Məhkəmə-Hüquq Şurasının üzvlərinə diplomatik pasportlar vermişik. Bilirsiniz ki, onlar həm də hakimləri seçirlər. Amma mən, sadəcə, sual vermək istəyərəm, məntiq haradadır ki, biz hakimi seçən bir qurumun üzvlərinə diplomatik pasportlar veririk, amma prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin üzvlərini seçən bir qurumun üzvlərinə həmin pasportları vermirik. Yeri gəlmişkən, onu da qeyd edim ki, Mərkəzi Seçki Komissiyasının üzvləri – mən özüm, bilirsiniz ki, Mərkəzi Seçki Komissiyasının katibi kimi fəaliyyət göstərmişəm, – müxtəlif konfranslara dəvət olunurlar, seçkiləri müşahidə etmək üçün ayrı-ayrı xarici ölkələrə mütəmadi səfərlər edirlər. Ona görə də Mərkəzi Seçki Komissiyasının üzvlərinə diplomatik pasportların verilməməsi mənim

üçün başa düşülən deyil.

Oqtay müəllim, xahiş edirəm, özünüz əlaqə saxlayın, bəlkə indi orada, Prezident Administrasiyasında bu məsələ ilə bağlı hansısa şöbənin nəsə problemi var. Nəhayət, bir aydınlıq gəlməlidir ki, uzun müddət qaldırılıdığı halda bu məsələ niyə müsbət həllini tapmır. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov.

**H.Məmmədov.** Hörmətli Sədr, hörmətli millət vəkilləri, mən də təklif olunan qanun layihələrinə səs verəcəyəm. Amma mənim diqqətimi soyadlar ilə bağlı məsələ cəlb etdi. Doğrudan da, burada bir anlaşılmazlıq var. Azərbaycan dilində qalın saitlər var, incə saitlər var. Yaxşı olar ki, əgər söz incə saitlədirsə, onun ingilis dilində qarşılığını da incə saitlə yazaq. Məsələn, mənim soyadım Məmmədovdur, bunu Mammadov yazırlar. Amma halbuki, "ə"-nin əvəzinə incə sait olan "e"-ni yaza bilərik. Olar Memmedov.

Yaxud, dünən Azərbaycanın "Qarabağ" futbol klubu yaxşı bir oyun nümayiş etdirdi. Orada bir futbolçu var, soyadı Hüseynovdur. Bunu rusca biz Quseynov yazırıq, ingilis dilində də yenidən götürüb bunu Quseynov yazmışıq. Rus dilində "h" səsi, "h" hərfi olmadığına görə, biz bunu Quseynov yaza bilərik. Yaxşı, bəs ingilis dilində niyə təzədən bunu Quseynov yazırıq? Hüseynov yazaq. Yəni bu daha doğru, daha dəqiq olar. Düşünürəm ki, əlaqədar təşkilatlar belə məsələlərə diqqət göstərsələr, daha yaxşı olar.

**Sədrlik edən.** Sağ olun. Elmira Axundova.

**E.Axundova.** Çox sağ olun, hörmətli Sədr. Mən diqqəti bir məsələyə yönəltmək istəyirəm. Bu, diplomatik pasportla bağlıdır. Bir sıra fövqəladə və səlahiyyətli səfirlərlə,

keçmiş millət vəkilləri ilə söhbət edərkən onlar da məndən xahiş ediblər ki, mən bir təklifi səsləndirim. Təklif ondan ibarətdir ki, fövqəladə səlahiyyətli səfirlərin və millət vəkillərinin səlahiyyətləri bitəndən sonra da vaxtı ilə verilmiş diplomatik pasportlar onlarda qalsın. Çünki belə təcrübə bir sıra ölkələrdə vardır. Məsələn, qardaş Türkiyədə keçmiş millət vəkili, sabiq millət vəkili məfhumu heç yoxdur. Onlarda elə "sayın millət vəkili" həmişə sayın millət vəkili kimi qalır, onlara hörmət edilir.

Səlahiyyətləri bitəndən sonra həm fövqəladə və səlahiyyətli səfirlər, həm də keçmiş millət vəkilləri yenə də bir sıra mühüm tədbirlərə qatılırlar, ictimai işlərlə məşğul olurlar. Əlbəttə, onlarda diplomatik pasportun qalması məqsədəuyğun olardı. Xahiş edirəm, bizim müvafiq komitəmiz bu məsələni müvafiq orqanlar qarşısında qaldırsın. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, gündəliyin 58-ci məsələsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 59-cu məsələsi. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi barədə. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli millət vəkilləri, bu dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, mövcud Cinayət Məcəlləsinin 213-cü maddəsində biz "vergi

ödəməkdən yayınma" sözlərini "vergiləri, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma" sözləri ilə əvəz etmişdik. Məhz buna görə həmin ifadə 162-1-ci maddəyə də şamil olunur. Amma, ümumiyyətlə, bu maddənin mahiyyəti ondan ibarətdir ki, əgər dövlət sosial sığorta haqları tamamilə ödənilibsə, o şəxs cinayət məsuliyyətindən azad olunur. Yəni bu maddə öz-özlüyündə çox liberal bir maddədir. Dəyişikliyin mahiyyəti sırf texnikidir. Yəni əvvəlki maddəyə uyğunlaşdırma xarakteri daşıyır. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Sonuncu 3 məsələmiz qalıb, bir zərfdə gəlib. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi haqqında. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, Cənab Sədr. Bildiyiniz kimi, bu məsələ digər iki məsələ ilə üzvi surətdə bağlıdır və əslində İnzibati Xətalar Məcəlləsində indi mənim məruzə edəcəyim məsələ digər məsələlərdən üzvi surətdə irəli gəlir və məhz buna görə "Bələdiyyələrin statusu haqqında" Qanuna da toxunacağam. Belə ki, "Bələdiyyələrin statusu haqqında" Qanunun 4-cü maddəsinə əsasən

yerli sosial müdafiə və sosial inkişaf proqramlarında mütəmadi olaraq mövcud qəbiristanlıqların qorunması, saxlanması, idarə olunması, yeni qəbiristanlıq sahələrinin yaradılması, ümumiyyətlə, mərasim və dəfn xidmətlərinin göstərilməsi və bunun təşkilinə yardım göstərilməsi nəzərdə tutulmuşdur.

Qəbiristanlıqların salınması və idarə olunması müvafiq icra hakimiyyəti orqanı, bu halda Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilir. Məlumat üçün deyə bilərəm ki, yeni belə bir qayda artıq hazırlanıb. Məhz İnzibati Xətalar Məcəlləsindəki dəyişiklik isə qəbiristanlıqların idarə olunması qaydaları haqqında qanunvericiliyin pozulmasına görə inzibati məsuliyyəti təklif edir. Bunlar cərimə sanksiyalarıdır, sizlərə təqdim olunub. Yəni 3 halda cərimə sanksiyası nəzərdə tutulur. Amma bir daha vurğulamaq istəyirəm ki, bu qaydaların özü Nazirlər Kabinetinin qərarı ilə təsdiq olunur. Səs verməyinzi xahiş edirəm.

**Sədrlik edən.** Fazil Mustafa.

**F.Mustafa.** Təşəkkür edirəm, Oqtay müəllim. Mənim fikrimcə, bu məsələ bələdiyyələrin müəyyən problemlərinin yaranmasına səbəb ola bilər. O da bununla bağlıdır ki, qəbiristanlıq ərazilərinin satılması, yaxud kimə isə verilməsi, – “satılması” ifadəsini bilərəkdən işlədirəm, – əksər yerlərdə artıq biznes vasitəsidir. Bizdə vətəndaş vəfat edəndən sonra ölüm üçün də yer almalıdır. Başqa qurumlar rəsmi və ya qeyri-rəsmi formada bu vəsaiti götürürlər. Amma qorunma, saxlanma – bunlar bələdiyyənin üzərinə qoyulur. Əslində, ərazidə nə qədər qəbiristanlıqlar, nə qədər bu cür sahələr varsa, onların idarəçiliyi, elə abadlaşdırılması məsələsi də bələdiyyələrin ixtiyarına verilməlidir. Torpağı da, yeri də o versin, hamısı ona aid olsun,

vəsaiti də o götürsün və ondan sonra ərazi hər hansı abadlaşdırmanı da o həyata keçirsin. Ona görə də real həyatda olan bu ziddiyyəti ortadan tamamilə qaldırmaq və bələdiyyələrə, ümumiyyətlə, öz ərazisində bir çox funksiyaları həyata keçirmək imkanı vermək lazımdır.

Bu təkcə qəbristanlıq yerləri ilə bağlı deyil. Baxın, diqqət edirsinizsə, Bakı şəhərində böyük şəhər bələdiyyəsi yaradılmadığına, ərazinin torpaq kadastrı dəqiqləşmədiyinə görə, bələdiyyə öz ərazisinə faktiki olaraq nəzarət edə bilmir. Formal olaraq, hansısa sənədi imzalamaq lazım gələndə ona bələdiyyənin ümumi yığıncağı adından imza atılır.

Bir çox hallara bələdiyyə münasibət bildirə bilməlidir. Məsələn, şəhərin ortasında, haradasa görürsən ki, kiçik yaşlı qız uşaqları masaj salonları barədə reklam vərəqələri paylayırlar. Maşının pəncərəsindən içəri atırlar. Bu, hansı bələdiyyənin ərazisindədirsə, heç olmasa, onunla bağlı müəyyən tədbirlərin görülməsi səlahiyyəti onlara verilməldir. Bununla təkcə inzibati orqanlar məşğul olmalı deyillər ki. Yəni bu kiçik uşaqları masaj salonların təbliğinə kim cəlb edib? Yaxud bələdiyyə ərazilərində, deyək ki, məktəblərin yanında, – artıq biz burada qanun qəbul etdik, – qəlyançəkmə yerləri, obyektləri yenə də fəaliyyət göstərir. Dənə ilə siqaret satan köşklər yenə fəaliyyət göstərir və heç kim də bunlara toxuna bilmir. Başa düşürük, indi hərənin bir himayəçisi var, ola bilsin ki, hərə öz obyektini hansısa formada qoruyur. Amma bu dövlətin işidir, əks halda gələcəkdə vətəndaşla, məktəbli ilə, konkret şəxslərlə bağlı sağlamlığa təhlükəli ola biləcək bir tendensiya inkişaf edə bilər. Ona görə də biz bələdiyyələrin səlahiyyətlərinin artırılması istiqamətində daha böyük işlər görməliyik və bələdiyyələrə lokal liderlərin

cəlb olunmasını, lokal sahədə müəyyən funksiyaları həyata keçirən insanların real səlahiyyətə malik olmasını təmin etməliyik.

Mən ona görə bunu əlaqələndirdim ki, bələdiyyələrin özləri də şikayət edirlər ki, biz torpaq məsələsinə faktiki olaraq qarışa bilmirik, məsələ ya Bakı şəhər İcra Hakimiyyəti səviyyəsində, ya da yerli icra hakimiyyətləri səviyyəsində həll olunur. Amma bütün məsuliyyət bələdiyyənin üzərində qalır. Ona görə də bu problem biryolluq həll olunmalı, bu cür səlahiyyətlər bələdiyyələrə verilməlidir. Bələdiyyə də öz sahəsində reklam və başqa fəaliyyətlə, heç olmasa, özünü ayaqda tutmalıdır.

Bu gün normal büdcəsi olan Azərbaycanda faktiki olaraq bələdiyyə yoxdur. Yəni qonşu ölkələrin, başqa yerlərin bələdiyyələri ilə müqayisə etsəniz, görərsiniz ki, faktiki olaraq bu qurum fəaliyyətsiz bir mexanizmə çevrilib və bunun üzərində düşünməyimiz vacibdir. Yerli səviyyədə vətəndaşın problemini həll edən qurumun inkişaf etdirilməsi dövlətin ümumi maraqlarına uyğundur. Çünki hər şeyi hədsiz dərəcədə mərkəzləşdirməyin təhlükəsini sonra görürük. Yerli problemlərin böyük əksəriyyəti, kiçik səviyyədə həll oluna bilən məsələlər yığılıb qalır və onlardan da vətəndaşlar həmişə narahatlıq keçirirlər, müəyyən problemlər yaşayırlar. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov.** Təşəkkür edirəm, hörmətli Sədr. Bu məsələ ilə bağlı mən də öz fikirlərimi bildirmək istəyirəm. Əslində, elə bu məsələlərin bir hissəsi bizim komitəyə də aid olan məsələlərdir. Hesab edirəm, gündəliyin 62-ci məsələsi də bununla bağlı olan məsələ olduğuna görə, Oqtay müəllim, mən hər üç məsələ haqqında öz fikirlərimi söyləmək istəyirəm.

Birinci növbədə ondan başlayım ki, Azərbaycanda bələdiyyələr var, kifayət qədər fəaliyyət göstərir. Artıq 20 ilə yaxındır ki, bu istiqamətdə fəaliyyət həyata keçirilir və tədricən formalaşır. Dünyanın başqa ölkələrində yüz illərdir, uzun müddətdir ki, belə orqanlar fəaliyyət göstərir.

İlk növbədə bələdiyyə üzvlüyünə seçilən və onu idarə edən insanların hər biri bələdiyyələrin qanunla, biz verdiyimiz hüquqlar çərçivəsində gəlir mənbələrini müəyyənləşdirməli və bundan səmərəli istifadə etməlidirlər. Götürək bələdiyyə torpaqlarını. Əgər bu torpaqlar verilibsə, bu torpaqlardan icarədən başqa təyinatlarla da istifadə edib xeyli gəlir əldə etmək və nəticə etibarı ilə gələn gəliri digər sosial sahələrə, əhalinin tələbatına uyğun sərf etmək olar.

Digər tərəfdən, dövlət tərəfindən əhalinin sayına uyğun olaraq dotasiyalar verilir. Dövlət büdcəsində hər bir bələdiyyə nəzərə alınır. Bu da kifayət qədər vəsaitdir. Yaxınlarda Auditorlar Palatası tərəfindən tək Bakı şəhərinin müxtəlif bələdiyyələrində yoxlamalar nəticəsində kifayət qədər faktlar ortaya çıxıbdır. Bu faktlar göstərir ki, istəsən bələdiyyələrin maliyyə imkanlarını tapmaq mümkündür. Bu var, bu imkanlar dövlət tərəfindən yaradılıbdır. Sadəcə, bundan istifadə olunmalıdır.

Keçək qəbiristanlıqlar məsələsinə. Oqtay müəllim, bu, ictimaiyyəti də düşündürən bir məsələdir. Bu yaxınlarda yəqin ki, Nazirlər Kabineti tərəfindən nümunəvi qəbiristanlıqların yaradılması və idarə olunması ilə bağlı sərəncam veriləcəkdir. Burada məsələ bilavasitə qəbiristanlıqlar üçün yerlərin ayrılması, onların idarə olunması, formaları ilə bağlıdır. Bu gün, doğrudan da, cəmiyyətimiz üçün çox ciddi məsələlərdir.

Bəzi hallarda görürsən ki, müxtəlif adamlar qəbiristan-

lıqlarda qabaqcadan özlərinə yer alır, yer müəyyənləşdirir və sairə bu kimi hallar var. İndicə biz İnzibati Xətalar Məcəlləsində dəyişiklik etdik. Hələ dünyasını dəyişməmiş insan üçün gedib yer alır. Bu, nə dərəcədə doğrudur?

Çox yaxşı bir layihə hazırlanıbdır. Yəqin ki, yaxın vaxtlarda o tətbiq olunduqdan sonra bu problemlər öz həllini tapacaqdır. Yas mərasimləri ilə bağlı o qədər dəm-dəsgaha, digər xərclərə də ehtiyac qalmayacaqdır. Yerlərdə də bu məsələlərin bələdiyyələr tərəfindən idarə olunması nəzərdə tutulur.

Orada bir neçə məsələ şəhidlərlə, tanınmış şəxslərlə bağlıdır və s. Bunlar ayrı bir müzakirənin mövzusudur. Əsasnamədə başqa məsələlər də öz əksini tapıbdır. Böyük şəhərləri çıxmaq şərti ilə, qalan yerlərdə qəbiristanlıqlarla bağlı məsələlərin hamısı bələdiyyələrin səlahiyyətlərinə verilir – bunun təşkil olunması, abadlaşdırılması, nəzarət və sair.

Bilirsiniz ki, müasir dövrdə bəzi yoluxucu xəstəliklər yayılır. Elə xəstəliklər var ki, onların müalicəsi uzun müddət mümkün olmur, yaxud müalicə zamanı çoxlu kimyəvi maddələrdən istifadə edilir. O insanların nəşi elə yerdə dəfn olunmalıdır ki, su qovşağından 300 metr aralı olsun, müəyyən yerlərə, əkin sahəsinə yaxın olmasın. Çünki biz görürük, kim harada gəldi, məktəbin böyründə, xəstəxananın, su hövzəsinin yaxınlığında və s. yerlərdə öz yaxınını dəfn edir. Bu, gələcəkdə böyük təhlükə yaradır. O baxımdan da, bunlar hamısı ölçülüb-biçilib həll olunmalıdır.

Oqtay müəllim, 62-ci məsələ ilə bağlı da qeyd etmək istəyirəm. Burada bir ifadə gələcəkdə bizim üçün problem yarada bilər. Göstərilir ki, bələdiyyələr tərəfindən az-təminatlı ailələrin dəfn və yas mərasimləri həyata keçirilir.

Yas mərasimi anlayışı bir şeydir, dəfn mərasimi tamam başqa şeydir. Mən hesab edirəm ki, yas mərasimi ifadəsi buradan çıxarılmalıdır. Niyə? Çünki imkansız adamın özü, yaxud yaxını ilə bağlı dəfn məsələsinə kömək etmək olar. Amma bələdiyyə gəlib bunun bütün yas xərclərini öz üzərinə götürsə, – indi Allaha şükür, yas xərcləri də elə həddə gəlib çatıb ki, bir toya bərabərdir, – buna bələdiyyənin gücü çatmayacaqdır. Mümkün deyil. O baxımdan da, burada dəfn xərclərindən söhbət gedə bilər. Aztəminatlı ailələrdir, şəhid ailələridir, imkanı olmayanlardır, bəli, bələdiyyə bu kateqoriyadan olan insanların yaxınlarının dəfnini öz üzərinə götürür. Nəqliyyat xərcləridir, dəfnin islam və digər dinlərə uyğun şəkildə həyata keçirilməsidir və sair. Bundan sonrakı proses artıq yas sahibinin öz ixtiyarına buraxılmalıdır. Əgər biz yas mərasimlərinin də keçirilməsini ora əlavə etsək, yenə deyirəm ki, onda problemlər yaranacaq. Hərə bir ərizə ilə bələdiyyəyə müraciət edəcək ki, bütün yas mərasimini əvvəldən axıra qədər həyata keçirməli, qəbirüstü abidələrin qurulmasını, digər məsələləri də öz üzərinə götürməlidir. Ona görə biz bələdiyyəni  bu cür çox yükləyə bilmərik. O baxımdan da, yalnız dəfn mərasiminin təşkili bələdiyyəyə həvalə olunmalıdır.

Digər bir məsələ şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqındadır. Bu prosedurlar dövlət büdcəsi hesabına həyata keçirildiyindən biz bələdiyyəni də həmin işlərin görülməsinə cavabdeh qurumların siyahısına daxil etməliyik. Bu məsələlər digər qanunla tənzimləndiyi üçün hər iki qanun bir-birinə uyğunlaşdırılmalıdır. Yəqin, növbəti oxunuşda bu qanunların uyğunlaşdırılması ilə bağlı hörmətli Arif müəllim də təkliflərini verər. Bununla həm bizim qanunlarda uyğunsuzluq aradan

qaldırılar, həm də insanların vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrə kömək və digər məsələlərə bələdiyyələr də öz töhfələrini verər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qənirə xanım, siz 62-ci məsələ ilə əlaqədar çıxış etmək istəyirsiniz? Əgər o deyilsə, Arif müəllim öz layihələrini təqdim eləsin, ondan sonra baxaq. Buyursun Arif Rəhimzadə. 61-ci məsələ. "Bələdiyyələrin statusu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi.

**A.Rəhimzadə,** *Milli Məclisin regional məsələlər komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Əli müəllim 61-ci məsələ ilə əlaqədar lazımi məlumat verdi. Həqiqətən, qaydalar tələb olunur. Bilirsiniz ki, qəbiristanlıqların qorunmasına aid xüsusi normalar hazırlanıb və bu iş bələdiyyələrə həvalə olunub. Bu sənədin layihəsi yaxınlarda Nazirlər Kabinetinə təqdim olunacaqdır. Bu normaları pozan insanlar inzibati məsuliyyətə cəlb olunurlar. Bunu Əli müəllim dedi. Mən bu haqda danışmaq istəmirəm.

O ki qaldı 62-ci məsələyə, burada nəzərdə tutulub ki, bələdiyyələrin ərazisində bələdiyyələrə əlavə tapşırıqlar verilir. Bələdiyyələrin ərazisində qəbiristanlıqların salınması, saxlanması, qorunması, idarə olunması, abadlaşdırılması və bələdiyyənin öz ərazisində yaşayan əhalinin aztəminatlı kütləsinə xidmət etməsi məsələləri nəzərdə tutulur.

Qəbiristanlıq bələdiyyələrin ərazisində salınırsa, əlbəttə ki, onu bələdiyyə idarə edəcəkdir. Burada daha bələdiyyə bunu edəcək, bələdiyyəyə bu hüququ vermək lazımdır deməyə ehtiyac qalmır. Eləcə də, Fəxri Xiyaban kimi yerlər, əlbəttə, bələdiyyənin tabeliyində olmayacaqdır. Bakıda hazırda meriya olmadığı üçün burada da bələdiyyənin rolu müəyyən qədər məhdudlaşır. Ancaq təzə salınan qəbi-

ristanlıqların, bələdiyyə ərazisində yerləşən bütün qəbiristanlıqlar kimi, xərci və tənzimlənməsi bələdiyyə tərəfindən həyata keçiriləcəkdir. Bu layihəyə aidiyyəti olmasa da, təkliflər verilir ki, gərək bələdiyyələrin maliyyəsi çoxalsın və sair. Türkiyədə belədir, başqa yerlərdə elədir. Həqiqətən, elədir. Məsələ burasındadır, bizdə bu sistem, bələdiyyə sistemi elə qurulub ki, heç vaxt özü-özünü təmin etməyib və üzərinə düşən vəzifələrdən artıq iş görə bilməyəcək. Bələdiyyələrin özünü təmin edə bilməsi üçün gərək rayon icra hakimiyyəti orqanı yalnız nəzarətedici orqan kimi fəaliyyət göstərsin. Qalan funksiyaların hamısı bələdiyyələrə həvalə olunsun. Digər ölkələrdə məsələ belə qoyulub. Yalnız onlar nəzarət edirlər ki, bələdiyyə fəaliyyətini qanunvericiliyə uyğun qurur, ya qurmur. İndi biz bu səlahiyyətləri birdən-birə bələdiyyələrə verə bilərik, ya yox? Bələdiyyələr bu funksiyaları öz üzərlərinə götürməyə hazırdırmı? Mənə elə gəlir ki, hazır deyildirlər.

Ancaq bu istiqamətdə iş görmək lazımdır və bələdiyyələr o vaxt, həqiqətən, üzərinə düşən vəzifələri yerinə yetirməkdə, yerli məsələləri həll etməkdə bir nömrəli qurum olacaqlar ki, onlara müəyyən səlahiyyətlər – maliyyə və digər məsələlərlə bağlı səlahiyyətlər verilsin. Misal üçün, Baltikyanı ölkələrdə olduğu kimi. Bələdiyyə ərazisində yaşayan hər bir şəxs harada işləməsindən asılı olmayaraq, vergiləri bələdiyyəyə verir. Onda, əlbəttə, görürsən ki, bələdiyyənin büdcəsi də sanballı bir büdcə olar. Bu qədər. Hər iki qanun layihəsi 3 oxunuşda müzakirə olunmalıdır. Xahiş edirəm, münasibətinizi bildirəsiniz. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Mən elə Arif müəllimin bitirdiyi

nöqtədən sözlərimi başlamaq istəyirdim. Çünki, əslində, bundan öncə qanunvericiliyimizdə bu maddə var idi ki, bələdiyyə ərazisində yaşayan əhalinin aztəminatlı təbəqəsindən olan mərhumların dəfn və yas mərasimlərinin təşkilinə yardım etməlidir. Mən kənd rayonunu təmsil edən millət vəkillərindən biriyəm. Dəfələrlə şahidi olmuşam ki, vətəndaşla bələdiyyə arasında narazılıq yaranır. Onlar "bu qanuna, qanunvericiliyə görə siz bizə bu dəstəyi göstərməlisiniz" deyir, bələdiyyələr isə "bunun üçün bizim büdcə imkanlarımız yoxdur" deyirlər. İndi onların üzərinə yeni, bir neçə vacib vəzifələr də qoyulur. Bələdiyyələrin ərazisində qəbiristanlıqların salınması, saxlanılması, qorunması, idarə edilməsi, abadlaşdırılması. Bələdiyyələrin üzərinə qoyulan bütün bu vəzifələr çox ciddi məsələlərdir. Əslində, qəbiristanlıqlarla bağlı problemlərimiz çox ciddidir və bunun həlli üçün daha çevik mexanizmlərin işlənməsi lazımdır.

Bir neçə gün bundan öncə reklam gəlirlərinin də bələdiyyələrdən alınaraq mərkəzləşmiş bir quruma verilməsini müzakirə etdik. Oradan bələdiyyələrə, sadəcə, 10 faiz ödəmələr gedəcək. Yəni bu vəsait bələdiyyələrə verilmədən onlara bu qədər vəzifələr həvalə edilir. Bu günə qədər qanunda bu vəzifənin, sadəcə, biri var idi və bələdiyyələr onu yerinə yetirə bilmirdilər ki, bizim buna maliyyə imkanlarımız yoxdur. İndi bu qədər vəzifəni yerinə yetirmək necə mümkün olacaq? Yəni bunu qəbul edə bilərik, amma bunun işləmə mexanizmində problemlər yaranacaq. Bəlkə, büdcə müzakirələri gəlir, bu məsələlər müvafiq qurumlarla müzakirə olunsun və ən azı bələdiyyələrə ilkin olaraq bu istiqamətdə vəsaitin verilməsi məsələsinə də baxılsın. Yoxsa, bu, yaxın gələcəkdə vətəndaşlarla bələdiyyə arasında gərginliyi daha da artıra bilər. Bu

məsələni söyləmək istəyirdim. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. İlham Əliyev.

**İ.Əliyev.** Təşəkkür edirəm, hörmətli Oqtay müəllim! Doğrudan da, bu gün birinci oxunuşda baxılan bələdiyyələrlə bağlı qanun layihəsinə dəyişikliklər çox ciddi məsələdir. Mənim həmkarlarım da bu məqamlara toxundular. Doğrudan da, kənd bələdiyyələrinin, – düzdür, acınacaqlı vəziyyətdədir demək yaxşı deyil, – maliyyəsi yoxdur. Maliyyəsi olmadığına görə də, ifadəmə görə üzr istəyirəm, onları yükləmək bir qədər düz deyil. Çünki, doğrudan da, münaqişə yaranır. Yerli əhali qanuna istinad edir, tələb edir, necə Qənirə xanım burada toxundu, bələdiyyənin isə imkanları yoxdur. Yaxud Siyavuş müəllimin dediyi məsələ, doğrudan da, ciddi məsələdir. Bəli, dəfni təşkil etmək olar, amma yas mərasimi vermək bir qədər ağır məsələdir. Çünki bu daha çox vəsait tələb edir.

Biz hamımız bilirik ki, yas mərasimi üçün çadır qurulmalıdır, çadırın içərisində müəyyən ləvazimat yerləşdirilməlidir və istər-istəməz süfrəyə yemək də olmasa, şirniyyat qoyulmalıdır. Bunların hamısı vəsait tələb edir. Bəlkə, doğrudan da, icazə versəydiniz, baxılardı ki, yas mərasimi sözləri çıxarılsın, ancaq dəfn sözü qalsın. Yaxud da qəbiristanlıqları abad və səliqəli saxlamaq vəzifəsi bələdiyyənin üzərinə qoyulsa, bir qədər çətin olardı, çünki çox yerdə, ümumiyyətlə, bu qəbiristanlıqlar bələdiyyədə deyil. Kommersiya qurumları torpağı icarəyə götürüblər, icazəsini alaraq orada qəbiristanlıq yaradıblar. Əgər onlar da bu gün bələdiyyədən tələb etsələr ki, gəl, bu qəbiristanlığı abadlaşdır, bu, hara gətirib çıxaracaq? Mən qısaca bu fikri söyləmək istəyirdim. Təşəkkür edirəm.

**Sədrlik edən.** Onlar elə şey tələb edə bilməzlər. Hər nə lazımdır, özləri edirlər. O ki qaldı qanun layihəsinə, bizdə

bu qanun layihələri 3 oxunuşdan keçir. Bütün fikirlərinizi ikinci oxunuşa qədər müəyyən edin. Yəqin Arif müəllim də bu məsələlərə bir daha dəqiqlik gətirər. Əgər başqa çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, 60-cı məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.16 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

61-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin sonuncu məsələsinə, 62-ci məsələyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, iki iclasımızda nəzərdə tutulan 62 məsələyə baxdıq. Mən sizə söz verdim, indi yarımsaatlıq müzakirələr olacaq. Buyurun, yazılın. Zahid Oruc.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Cənab Sədr, çox təşəkkür edirəm ki, parlament üzvlərinə belə bir zaman ayrıldı. Həqiqətən də, 3 aylıq məlum fasilədən sonra cari xarakterli müxtəlif ictimai, regional, beynəlxalq məsələlərə parlamentdən baxışın alınması çox önəmlidir.

Mən birinci olaraq bu günün xarakterinə uyğun təklifimi səsləndirmək istəyirəm. Müəllimlər günü ilə bağlı hər birimiz özümüzün nostalji dolu çox hislərimizi, düşüncələrimizi paylaşa bilərik. Hər birimiz orta yaşda, ahıl yaşda olmağımıza baxmayaraq, müəllimlərimizi böyük ehtiramla xatırlayırıq, yad edirik. Son illər ərzində Azərbaycan müəlliminin ictimai obrazı, maddi imkanları yaxşılaşmışdır və bu istiqamətdə digər addımlar atılmaqdadır. Ona görə hesab edirəm ki, Azərbaycan müəllimlərinin fəaliyyəti ilə bağlı ayrıca qanun olmalıdır. Müəllim kimdir, onun ictimai statusu nədən ibarətdir, o, idarəetmə sistemində hansı yerdə durur? Mən xüsusən onların sosial təminat məsələlərinin də qanunvericiliklə tənzimlənməsini təklif edirəm. Beynəlxalq praktikada belə bir qanunvericilik var. Bu baxımdan, məsələn, Ağdam və başqa rayonlarda, yəni Azərbaycanın ermənilərin işğalı altında olan yerlərə yaxın ərazilərində işləyən müəllimlər xüsusilə fərqləndirilməlidirlər. Çünki müəllim kimi çalışan həmin şəxslər

təkcə tədris prosesini həyata keçirmirlər, həm də döyüşçü və əsgər kimi Azərbaycan hərbisinin ağırlığını çiyinlərində daşıyırlar. Bununla bağlı məsələ də qanunvericilikdə nəzərdə tutula bilər.

İkinci məsələ. Cənab Sədr, biz parlamentdə Cümhuriyyətin 100 illiyi ilə bağlı çoxlu orden və medalların təsis olunması ilə bağlı dövlət başçısından gələn təşəbbüsləri təqdir etdik. Hər birimiz başa düşürük ki, bu, keçmiş və gələcək arasında varislik ənənələrini qoruyub saxlamaq naminə çox təqdirəlayiq addımlardır. Bu o deməkdir ki, daxili işlər orqanları, sərhəd qoşunları, prokurorluq və digər strukturlar o zaman yaranıb. Ancaq mən hesab edirəm ki, bunun ana xətti dövlətin özünün formalaşmasıdır. Cümhuriyyətin qurucuları o yubileyləri 30–40 il ya mühacirətdə, ya da sürgündə keçiriblər.

Ulu öndər Heydər Əliyev Azərbaycan siyasi hakimiyyətinə qayıtmasaydı, Cümhuriyyətin 100 illiyini biz də bu gün bir neçə dövlətin tərkibində keçirə bilərdik. O baxımdan mən Azərbaycanın dövlət müstəqilliyinin 100 illiyi ilə bağlı ordenin təsis olunmasını təklif edirəm. Bunu haqq edən, Azərbaycan xalqını müstəqilliyin bərpası dövründə xilas edən, bu millətin varlığını və o dövlətin müstəqilliyini təcəssüm etdirən Heydər Əliyevdir. Mən düşünürəm ki, bu yöndə parlamentin addımı Azərbaycan dövlətinə verdiyi ən böyük qiymət olar. Mən bu məsələləri gündəmə gətirmək istəyirdim. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çingiz Qənizadə.

**Ç.Qənizadə.** Cənab Sədr, mən dünən Rusiya və Ermənistan mətbuatında Rusiya Dövlət Dumasının MDB məsələləri və həmvətənlərlə iş üzrə komitəsinin sədr müavini Konstantin Zatulinin açıqlamalarının şahidi oldum. Bir şeyi qeyd etmək istəyirəm ki, son illərdə möhtərəm

Prezidentimizin apardığı siyasət nəticəsində, həm də təbii ki, Rusiya dövlətinin rəhbərliyinin arzusu və istəyi ilə Rusiya ilə Azərbaycan arasında dostluğun daha da inkişaf etdirilməsi istiqamətində aparılan işlər, birinci şəxslər arasında tez-tez keçirilən görüşlər erməni lobbisini və ermənipərəst qüvvələri olduqca narahat etməyə başlayıb. Çünki onlar belə qüdrətli bir dövlətlə Azərbaycanın münasibətlərinin normal olmamasında maraqlıdırlar. Niyə? Çünki Dağlıq Qarabağ problemi var və o problemi ermənilər həmişə özlərinin istəyinə uyğun formada saxlamaq istəyirlər.

Konstantin Zatulin də ermənipərəst qüvvələrin və diasporun təsiri altında olan deputatlardan biridir. Mən buna uyğun olaraq, fikirlərimin təsdiqi kimi sonda bir neçə araşdırmalarımı da qeyd edəcəyəm və təbii ki, bu qüvvələr bu münasibətlərin yaxşılaşmasını və genişlənməsini istəmirlər.

Konstantin Zatulin yəni Rusiyanın ruposters.ru saytında fikirlərini bildirir və dərhal da Ermənistanın bir çox saytları, o cümlədən yepramaz.org saytı bu fikirləri bəh-bəh ilə öz səhifəsində işıqlandırırlar.

Konstantin Zatulin həm Azərbaycan xalqını, həm də Azərbaycan dövlətini təhdid etməkdən belə çəkinmir. Görün o nə deyir? O deyir ki, Azərbaycan rəhbərliyi (təbii ki, Dağlıq Qarabağ məsələsini nəzərdə tutur) kompromis istəmir. Azərbaycan sürətlə silahlanması, hərbi büdcəni artırması, müharibə təhlükəsinin ortaya atılması ilə öyünür və biz, mənim həmkarlarım da bunun həmişə əleyhinəyik və biz buna imkan verməк istəmirik. Qeyd edir ki, bu məsələdə bizim rəqibimiz Azərbaycanın indiki hakimiyyəti və siyasi dairələridir. Siyasi dairələr elə Azərbaycan xalqıdır, elə bu parlamentin özündə ondan çox partiyanın

təmsilçiləri var. Mən bitərəfəm, ona görə dəqiq sayı bilmirəm. Müxalifət də var, iqtidar da var və birlikdə biz Azərbaycan xalqıyıq.

Zatulinin rəqibi Azərbaycanın rəhbərliyi və siyasi dairələridir. O belə də qeyd edir: "руководители и политические круги Азербайджана". Ümumilikdə onun rəqibi Azərbaycan xalqıdır. Amma biz nəzərə alsaq ki, onun Dövlət Dumasındakı fəaliyyəti MDB ölkələri ilə iş üzrədir, MDB ilə iş üzrə bir komitənin sədr müavinidir, onda, təbii ki, bu cür açıqlama yolverilməzdir.

Doğrudur, biz onun fikirlərini Rusiyanın mövqeyi kimi qəbul edə bilmərik. Necə ki, Azərbaycan parlamentində də millət vəkilləri müəyyən fikirləri öz adından deyir və bu, Azərbaycan dövlətinin siyasi mövqeyi deyil. Zatulinin fikri də bizim üçün Rusiyanın siyasi mövqeyi deyil, amma o, fikirlərinin sonunda bir şey də deyir ki, əgər Dağlıq Qarabağda müharibə başlasa, bu, Azərbaycanın dağılması ilə nəticələnəcək. Yəni, bayaq xalqımızı, indi isə dövlətimizi təhdid edən birisi heç nədən çəkinmədən bu cür fikirlər bildirir.

O həmçinin bizim həmkarların parlamentdə səsləndirdiyi fikirlərə münasibət bildirərək sonda qeyd edir ki, Azərbaycanın siyasəti sənədlərdə olduğundan fərqlidir. Zatulin bir nəfər həmkarımızın Azərbaycan parlamentində səslənən özünəməxsus fikirlərini bütün Azərbaycan dövlətinin siyasəti kimi qələmə verməklə, onu mətbuata çıxarıb. Təbii ki, biz bunu qətiyyətlə pisləyirik.

Qeyd etmək istəyirəm ki, Zatulin 2010-cu il mayın 23-də Dağlıq Qarabağda dırnaqarası "parlament seçkiləri" keçirilərkən Dağlıq Qarabağa qanunsuz səfər etmiş və Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən də arzuolunmaz şəxslər siyahısına salınmışdır. Yəni bu şəxs dünyanın

və beynəlxalq hüququn tanımadığı bir respublikada seçkilərin keçirilməsində müşahidəçi olursa, demək, bunun ermənilərlə sıx əlaqədə olmasına heç bir şübhə yoxdur. Biz araşdırma apardıq və məlum oldu ki, o, bütün siyasi və ictimai fəaliyyətini məhz erməni lobbisinin təsiri altında, erməni maliyyəsi ilə həyata keçirənlərdən biridir. O, Batumidə, ermənilərin də yaşadığı Acariya Muxtar Respublikasında anadan olub. Hesab edirəm ki, əlavə şərhə ehtiyac yoxdur.

Mən fürsətdən istifadə edib, Oqtay müəllim, bir şeyi də deyim. Mən elə bu tribunadan həmkarlarımıza, bayırda olan dostlarımıza, mətbuata müraciət etmək istəyirəm. Biz bəzi məsələlərdə, xüsusilə siyasi məsələlərdə olduqca ehtiyatlı olmalıyıq. Mən hüquqşünasam və qeyd etmək istəyirəm ki, keçmişdə baş verənləri bu gün hər hansı bir dövlətin adına çıxmaq, onun adı ilə hallandırmaq yolverilməzdir. Biz heç vaxt demirik ki, 20 yanvar hadisələrini Rusiya törədib. Biz deyirik ki, SSRİ-nin o vaxtkı rəhbərliyi və sovet ordusu törədib. Ona görə biz bu günə baxmalıyıq və bu gün cənab Prezidentin bizə yaxın olan, qonşu olan qüdrətli bir dövlətlə dostluq münasibətlərimizin inkişafına yönələn siyasətinə kölgə salmamalıyıq. Qeyd edim ki, istər Rusiyada Zatulin kimiləri, istərsə burada hansı isə fikir söyləyən bəzi-bəzi şəxslər müəyyən siyasi proseslərdə yanlışlıqlara yol verərək, xalqın cənab Prezidentə etimad etdiyi Dağlıq Qarabağ məsələsinin həlli ilə bağlı siyasəti kölgə altına ala bilməzlər.

Mən sonda bir məsələni də deyim. Bayaq burada Qarabağ mitinqi ilə bağlı fikirlər səsləndi. Mənə bir jurnalist mitinqin səhərisi günü zəng etdi. Dedi, siz niyə mitinqə qatılmadınız? Bir az vətən, pul, millət... Mən bir cümlə ilə jurnalistə fikrimi bildirdim ki, biz hamımız, elə sən özün

də cənab Prezidentin əsgərləriyik. Əgər müharibə olacaqsa, biz silahla, sülh olacaqsa, gül-çiçəklə Dağlıq Qarabağa gedəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli deputatlar! Çingiz bəyin dediklərinə tam qatılıram. Bu sahədə bizim beynəlxalq mübarizəmizin bir önəmi də beynəlxalq təşklilatlarda layiqincə təmsil olunmaqdır. Qeyd etmək istəyirəm ki, ən qədim beynəlxalq siyasi təşkilat olan Sosialist İnternasionalı 178 dövlətin siyasi partiyalarından ibarətdir. Deməli, bu yaxınlarda Şərqi Avropa, Qara dəniz hövzəsi və Cənubi Qafqaz üzrə komitənin həmsədrliyinə Sosial-Demokrat Partiyasının sədri Araz Əlizadəni seçiblər. Qeyd etmək istəyirəm ki, 15 il bu vəzifəni erməni tutub. 15 ildən sonra Azərbaycanın nümayəndəsi həmsədr olub. Təbii, bunun əhəmiyyəti həm də ondadır ki, vaxtilə Sosinternin baş katibi Luis Ayala Azərbaycana səfər etdi, cənab Prezidentlə görüşdü. Heç şübhəsiz ki, o, Azərbaycan həqiqətlərini birinci əldən aldı və ona belə bir hörmət göstərildi. Mən solçu deyiləm, ancaq hesab edirəm ki, sol düşərgədə də çox ciddi mübarizə gedəcək – əlbəttə, Qarabağımız, Azərbaycanın müstəqilliyi ilə, beynəlxalq məsələlərlə bağlı. Bilirik ki, həmin sol partiyaların çoxu Avropa təşkilatlarında təmsil olunublar, Avropa hökumətlərində mühüm mövqelərə malikdirlər. Bu sahədə də çox ciddi hərəkətlər etmək zərurəti yaranıb.

Eyni zamanda, bir kəlmə demək istəyirəm. Bayaq ad-soyad məsələlərinə toxunuldu. Bizdə müəyyən adları götürməyə qoymurlar. Yəni VVAQ şöbəsində qoymurlar ki, bu ad milli mentalitetimizə uyğun deyil, eybəcər səslənir və sair. Mən hesab edirəm ki, vaxtilə Kamal Atatürk də islahat keçirəndə heç də orada könüllülük prinsipini

qoymurdu. Müəyyən milli məsələlərdə yalnız könüllülüyə bel bağlamaq lazım deyil. Eyni zamanda, hansısa imperativ qərarlar da vermək lazımdır. Yəni, bir sıra dövlətlərdə görürük, biz şəxsi nümunə göstərməliyik. Elə deputatlarımız da, rəhbər işçilər də soyadlarımızı milliləşdirməliyik ki, başqalarına da yol açaq. Mən düşünürəm, buna da çox ciddi əhəmiyyət vermək lazımdır.

Qarabağla bağlı mən tavtoloji fikirlərlə vaxtınızı almaq istəmirəm. Ancaq bir sözü yenə də demək istəyirəm. Əlbəttə ki, diplomatik sahədə bütün beynəlxalq hüquq bizim tərəfimizdədir, dünya bizim ərazi bütövlüyümüzü tanıyır. Heç Ermənistan özü bu barədə əks fikirdə deyil, məsələn, Dağlıq Qarabağın müstəqilliyini tanımayıb. Ona görə də öz ərazimizdə, nəhayət ki, diplomatik səylər bəhrə verməsə, antiterror əməliyyatı keçirmək zərurəti yaranacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev.

**E.Musayev.** Təşəkkür edirəm, cənab Sədr! Mən də ilk öncə Azərbaycan müəllimlərini təbrik edirəm və birbaşa söyləyəcəyim mövzuya keçid almaq istəyirəm. Burada hörmətli həmkarım Siyavuş Novruzov daxili fitnəkarlardan danışdı. Amma mən istiqaməti xaricdə yaşayan xəyanətkarlara yönəltmək istəyirəm. O xəyanətkarlar ki, aylardır Azərbaycanın rəhbərini, onun ailəsini, Milli Məclis rəhbərliyini, Azərbaycanın ləyaqətli deputatlarını, nazirlərini, hökuməti çox ağır bir şəkildə hədəfə götürüblər. Kimin bu məsələdə necə münasibət bildirməsi, davranması artıq iqtidar adına çıxış edən insanların öz vicdanına qalan məsələdir. Amma mən bu yaxınlarda özüm üçün, sadəcə, maraqlı olduğu üçün müəyyən etdim ki, həmin qrupa daxil olan insanların bəzilərinə qarşı hətta heç cinayət işi qaldırmayıblarmış. Mənə çox maraqlı gəldi.

Əslində, bir daha təkrar edirəm, burada münasibət bildirmək, həqiqətən, hər bir insanın öz vicdanına qalan məsələdir. Amma ortalıqda ağır təhqir elementləri varkən cinayət işi başlamamaq nəyə əsaslanır, bu, ümumiyyətlə, nə deməkdir? Bundan artıq nə olmalıdır ki, cinayət işi başlansın. Mənim üçün çox maraqlıdır.

Təbii, Azərbaycan siyasətində müəyyən insanlar var, hətta mən deyərdim ki, orta dərəcəli məmurlar belə özləri haqqında mediada ən xırda informasiya gedən kimi özlərinə əl qatırlar. Bütün nəsillərini, əsillərini bu məsələyə səfərbər edirlər. Media ilə kimin yaxınlığı varsa, qardaş, oradan o cümlə çıxsın, burada bu yazı çıxsın. Amma Prezident haqqında, onun ailəsi haqqında, ümumən iqtidar haqqında nə isə gedəndə tam laqeydlik nümayiş etdirirlər ki, mənlik deyil. Maraqlıdır, bəs kimlikdir? Əsas iddiaları da bundan ibarətdir ki, biz desək, bizim ailələrimiz hədəfə götürüləcək, bizim balalarımızı söyəcəklər, qanımızı söyəcəklər, anamızı-atamızı söyəcəklər. Məgər Zahid Orucun ailəsi ailə deyil? Qüdrət Həsənquliyevin ailəsi ailə deyil? Siyavuş Novruzovun ailəsi ailə deyil? Bunlar ön cəbhədə olduqları üçün bu gün hədəfə gəliblər.

Allah Heydər Əliyevə qəni-qəni rəhmət etsin, həmişə deyərdi ki, mövqe bildirin, cənablar. Çünki ulu öndər çox gözəl başa düşürdü ki, ən təhlükəli insan məhz mövqesiz insandır. Biz bu gün mövqe bildirməsək, mən əminəm ki, yeni eldar mahmudovlar, yeni "quskalar" və sair bu tip insanlar növbəti mərhələdə də yetişəcək. Şəxsən mənim qənaətim bundan ibarətdir. Əgər İlham Əliyevin, Azərbaycanın şərəfli liderinin hədəfə alındığı yerdə kim isə bu söhbət mənlik deyil deyib keçirsə, bu bir siyasətdə bir insanın edə biləcəyi, tuta biləcəyi ən şərəfsiz yoldur. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Şahin İsmayılov.

**Ş.İsmayılov**. Çox sağ olun, hörmətli Sədr! Hörmətli Sədr, əziz həmkarlar! Mən də ilk növbədə həmkarlarımın təbrikinə qoşularaq hörmətli müəllimlərimizi təbrik edirəm və fəaliyyətlərində uğurlar arzulayıram.

Əziz həmkarlar, artıq biz Azərbaycan gənclərinin VIII Forumu ərəfəsindəyik. Azərbaycanda gənclər siyasəti çox uğurlu bir yol keçibdir və biz növbəti mərhələ olaraq tarixi anlara şahidlik edəcəyik. Adı birbaşa ulu öndər Heydər Əliyevlə bağlı olan Azərbaycan gənclərinin Forumu artıq səkkizincisinə qədəm qoyur və VIII Forum ilə əlaqədar olaraq biz regionlarda zona toplantılarına, forumlarına gedirik və orada gəncləri dinləyirik. Region gənclərinin qaldırdığı bir sıra vacib məsələlər var, o cümlədən Azərbaycan tələbələrinə güzəştlər edilməsi ilə bağlı.

Məlumat üçün nəzərinizə çatdırım ki, "Azərbaycan gəncliyi 2011–2015-ci illərdə" Dövlət Proqramına uyğun olaraq dövlət büdcəsi hesabına Azərbaycanda bütün tələbələrə endirim kartı verildi. Müqayisə üçün qeyd edək ki, bu kartlar Avropada bir il üçün təqribən 12–20 avroya başa gəlirsə, Azərbaycanda tələbələrə dövlət büdcəsi hesabına verildi və hazırda kart özündə təqribən 200-ə yaxın endirimi birləşdirir. Bu kart beynəlxalq kart olmaqla yanaşı, Avropada təqribən 80 min məkanda endirimi özündə ehtiva edir. Bizim regionlarda yaşayan gənclərimizin, eləcə də paytaxtda yaşayan tələbələrin də bir xahişi, istəyi oldu. Təbii ki, biz də bunu aidiyyəti dövlət qurumları ilə müzakirə edirik və mən bu gün həmin xahişi burada səsləndirmək istəyirəm.

Azərbaycan tələbə kartı beynəlxalq status daşıdığına görə, qeyd etdiyim kimi, Avropada nəqliyyat sahələrinə çox böyük endirimlər verir və regionlarda, eləcə də pay-

taxtda oxuyan tələbələrin də arzuları ondan ibarətdir ki, paytaxtda da nəqliyyatda tələbələrə endirimlər edilsin. Təbii ki, bizdə nəqliyyat qiymətləri Avropa ilə müqayisədə çox ucuzdur. Ümumiyyətlə, dünya üzrə nəqliyyatda edilən ödənişlərə baxsaq, Azərbaycan nəqliyyat sahəsində çox az ödənişlər tələb edən ölkədir. Amma yenə də tələbələr sosial təminat baxımdan nisbətən zəif zümrə sayıldığına görə, onlar nəqliyyatda da endirimin verilməsini istəyirlər. Mən də bu məsələni bu gün səsləndirdim. Təbii ki, danışıqlar gedir və ümid edirəm ki, yaxın gələcəkdə nəticə verəcək, tələbələr tələbə endirimlərindən yararlanacaqlar. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamran Nəbizadə.

**K.Nəbizadə.** Oqtay müəllim, hörmətli həmkarlarım! Mən də Çingiz müəllimin toxunduğu mövzuya münasibət bildirmək istəyərdim. Bu da Azərbaycan–Rusiya münasibətləridir. Azərbaycan ümumilikdə bir ölkə kimi həm qüdrətli ölkədir, həm də uğurları göz qabağındadır. Bütün ölkələrlə, xüsusilə də sərhədyanı ölkələrlə sıx münasibətlər yaranıb və dəfələrlə cənab Prezident İlham Əliyev bəyan edib ki, hətta Ermənistan  öz işğalçı siyasətindən əl çəksə, biz Ermənistanla da işbirliyinə və əməkdaşlığa hazırıq. Bu halda, bu vəziyyətdə, təbii, adama bir az pis gəlir ki, Rusiya ictimaiyyətində Azərbaycana qarşı bir rəy formalaşdırmaq istəyirlər. Bu rəyin bir nümunəsi Çingiz müəllimin dediyi Konstantin Zatulinin bəyanatı idi. Bu, təbii ki, rəsmi bəyanat deyil və Rusiya hökumətinin, Rusiya rəsmilərinin yanaşması deyil. Ümumiyyətlə, bu gün Rusiya cəmiyyətinin belə bir yanaşması yoxdur və ziddiyyətlə dolu bir bəyanatdır. Ermənipərəst insanın bəyanatıdır. Amma bu bəyanata istinad olunur, necə ki, bizim həmkarlarımızın çıxışlarına. Mən bununla bağlı həmkar-

larımdan, deputatlardan xahiş edərdim ki, belə bəyanatlarda çox diqqətli və ehtiyatlı olsunlar. Çünki xüsusilə deputatların bildirdiyi rəy və bəyanatlara bizi sevməyən qüvvələr rəsmi don geyindirmək istəyirlər. Bu gün Rusiyanın Azərbaycanla əməkdaşlığı və münasibətləri nə qədər yaxşılaşırsa, Ermənistanla münasibətləri kəskin surətdə pisləşir. Buna da səbəb Ermənistanın işğalçı və avantürist siyasətidir və bu, Rusiya ictimaiyyətinə də artıq bəllidir. Bu şəraitdə belə tələsik bəyanatlar, təbii ki, Azərbaycanın həm mövqeyinə, həm də mənafeyinə ziyan gətirir. Mən başa düşürəm, bu müstəqil bir fikirdir və mən bütün fikirlərə, təbii ki, həmçinin deputat həmkarlarımın fikirlərinə çox böyük hörmətlə yanaşıram. Yalnız düşünmək lazımdır ki, bu, bizim Rusiya ilə və digər ölkələrlə münasibətlərimizə çox böyük ziyan vura bilər.

Xüsusilə Rusiya ilə əməkdaşlığın bugünkü səviyyəsini qeyd etmək istərdim. Bu münasibətlər çox inkişaf edib. Sentyabr ayında Soçidə prezidentlərin görüşü oldu. Bir sıra hökumətlərarası müqavilələr imzalandı. Sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Bakıya səfəri zamanı Azərbaycan-Rusiya biznes forumu keçirildi. Yəni, iqtisadi sahədə əməkdaşlıq gündən-günə güclənir. Hərbi sahədə də bu belədir. Zatulinin bəyanatında ziddiyyət məhz ondan irəli gəlir ki, bizim Rusiya ilə hərbi sahədə də çox ciddi əməkdaşlığımız var.

Onu da yaddan çıxarmaq olmaz ki, Rusiyada bir milyondan artıq azərbaycanlı yaşayır və onlar artıq böyük bir diaspor kimi formalaşıb. Onlar Azərbaycanın xeyrinə bir çox işlər görür, Rusiyada ictimai rəyi formalaşdırırlar. Bunları nəzərə alaraq, deputat həmkarlarımdan bir daha xahiş edərdim, bizim beynəlxalq siyasətimizi və mövqelərimizi düşünərək çıxış eləsinlər və bu məsələlərə çox

diqqətlə yanaşsınlar. Çox sağ olun.

**Sədrlik edən**. Sağ olun. Xahiş edirəm, elə eləyin ki, müzakirədə çıxış vaxtı 3 dəqiqədir, çox keçməyək. Buyurun, Qənirə Paşayeva.

**Q.Paşayeva**. Hörmətli Sədr, mən də həmkarlarımın təbriklərinə qoşularaq bütün dəyərli müəllimlərimizi müəllimlər günü münasibətilə təbrik edirəm. İki müəllimin övladı olaraq bu peşənin nə qədər çətin və ağır olduğunun hər zaman fərqində olaraq böyümüş bir insanam. Bu müzakirələrlə əlaqədar, özəlliklə müəllimlərimizin qaldırdığı bir məsələni xüsusi diqqətə çatdıraraq, parlamentdən onların gözlədiyi dəstəklə bağlı fikirləri səsləndirmək istəyirəm. Bu gün müəllimlərimiz sayı minlərlə olan böyük bir qüvvədir. Təbii ki, bu gün ölkəmizdə ev, mənzil problemi müəllimlərimiz arasında da ciddi narahatlıq doğuran problemlərdən biridir və bu problemlərin həlli üçün ölkədə iki mexanizm fəaliyyət göstərir. Biri güzəştli ipoteka kreditləri, digəri yeni başlayan sosial evlər layihəsidir. Amma sosial evlər layihəsindən yalnız gənc müəllimlər yararlana biləcək. Çünki şərtlərə görə, bundan yalnız 35 yaşın altında olan gənc müəllimlər, gənc ailələr yararlana bilər. 35 yaşı keçmiş müəllimlərin bu layihədən yararlanması mümkün deyil. Həmçinin müəllimlər güzəştli ipoteka alan qruplara daxil deyildirlər.

Bizim elə müəllimlərimiz var, gənclərin yetişməsində 15 il, 20 il, 25 il və daha çox əməyi, zəhməti var və onlar öz fədakarlıqları ilə çox böyük örnəkdirlər. Yaxşı olardı ki, müəllimlərin də güzəştli ipotekadan yararlanan kateqoriyaya daxil edilməsi məsələsinə büdcə müzakirələri öncəsi, elə komitələrimiz səviyyəsində, müvafiq qurumlarla müzakirələr çərçivəsində baxılsın. Məsələn, ilkin olaraq bu şəkildə ki, ən azı 20 il iş stajı olan müəllimlər

ipotekadan yararlansın. İlk öncə daha çox stajı olan müəllimlərin bundan yararlanması mümkün olsun. Gənc müəllimlər sosial evlər layihəsindən yararlana bilərlər və beləliklə, müəllimlərimizin də bu istiqamətdə problemləri azalar. Çünki əmək haqqı şərtləri ilə müəllimlərimizin digər ipoteka növlərindən yararlanma imkanları, demək olar ki, sıfıra bərabərdir. Onlar ancaq dövlətin güzəştli ipoteka və sosial evlər layihəsindən yararlana bilərlər. Yaxın gələcəkdə bu məsələyə baxılması, bu məsələnin öz həllini tapması və müəllimlərimizin də güzəştli ipotekadan yararlanan kateqoriyaya daxil edilməsi, mənə elə gəlir ki, onlar üçün ən böyük hədiyyə olardı. Ən böyük bayram təbriki olardı. Bu məsələnin də onlar hər görüşdə qaldırılmasını xahiş edirlər və ümid edirik ki, öz həllini tapar.

**Sədrlik edən**. Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli Sədr. Mən müzakirələr vaxtı bir neçə məsələyə toxundum. Bir məsələyə də xüsusilə toxunmaq istəyirəm.

Təbii ki, parlamentdə müxtəlif məsələlər səslənir, qeyd olunur. Nəzərə almaq lazımdır ki, bunların heç biri Azərbaycan dövlətinin mövqeyi deyil. Bu ancaq şəxsi mövqelərdir və bu baxımdan, hər bir şəxs öz fikrini söyləməkdə azaddır. Amma onlar da nəzərə almalıdırlar ki, deyilən hər bir yanlış fikir ölkə üçün nə qədər təhlükəli ola bilər, münasibətləri poza bilər və bundan kimlərsə sui-istifadə edər. Bu baxımdan da, hesab edirəm ki, biz düzgün yol tutmuşuq. Bu yol ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub – Azərbaycanın müstəqil xarici siyasəti və heç bir bloka qoşulmadan, hər bir tərəflə bərabər qarşılıqlı münasibətlərin yaradılması. Bu gün də Prezidentimiz tərəfindən bu siyasət davam etdirilir. Dəfələrlə cəhdlər olunmasına baxmayaraq, müxtəlif bloklara, müxtəlif döv-

lətlərə birbaşa münasibətin bildirilməsi və yaxud hansısa bloka qoşulmaq, ancaq bunların heç biri nəticə verməyib. Cənab Prezident bu addımları Azərbaycan xalqının maraqlarını ifadə edərək atır.

İlk növbədə, biz qonşularımızla xoş münasibətdə olmalıyıq. Biz şahidi olduq ki, qonşularımızla xoş münasibətdə olmamaq 1993-cü ildə hansı vəziyyətə gətirib çıxartdı. Keçmiş iqtidarın dövründə ətrafda olan qonşularımızın, demək olar ki, hamısı ilə biz düşmən vəziyyətindəydik. Xarici siyasət sahəsində davamlı və gərgin fəaliyyətin nəticəsində ümummilli lider bugünkü münasibətləri qura bildi, o cümlədən iri dövlətlərlə, beynəlxalq təşkilatlarla. Baxmayaraq ki, mütəmadi Avropa təşkilatlarında bizə qarşı ədalətsiz qərarlar qəbul olunur, mən hesab edirəm ki, onlarla da biz öz münasibətlərimizi qurmalıyıq. Biz öz fikirlərimizi deməliyik, öz həqiqətlərimizi çatdırmalıyıq və Avropa meydanından da istifadə etməliyik. İndi görürsən, nümayəndələrimizdən biri çıxış edir – Avropa Şurasından çıxaq, oradan çıxaq, buradan çıxaq. Mən hesab edirəm ki, biz hər bir təşkilatla qarşılıqlı münasibətləri saxlamalıyıq. Bilirik ki, ədalətsizdir, amma onların içərisində olub, sözümüzü orada deməliyik. Azərbaycan parlamentində sözü deyirik, təbii ki, çox uzağa getmir. Amma Avropa Parlamentində, Avropa Şurasında, ATƏT-də, NATO-da sözümüzü deməklə bütün dünya ictimaiyyətinə öz fikirlərimizi çatdırarıq.

**Sədrlik edən**. Vaxt çatmır. Bir dəqiqə verin.

**S.Novruzov**. Vaxt çatsaydı, Məhəmməd Füzuli söz haqqında qəzəl yazmazdı ki? O baxımdan, Oqtay müəllim, hesab edirəm ki, bu məsələlərdə həssas, diqqətli olmalıyıq. Bu gün dünyada gərginlik var və hər kəs də günahkar axtarır. Belə günahkar axtarışları dövründə biz öz sabitliyi-

mizi, müstəqilliyimizi var gücümüzlə, Prezidentin ətrafında sıx birləşərək qoruyub saxlamalıyıq. Təşəkkür edirəm.

**Sədrlik edən**. Məlahət İbrahimqızı.

**M.İbrahimqızı**. Çox sağ olun, Oqtay müəllim. Mən də bizim hər birimizin həyatımızda, eləcə də şəxsiyyət kimi formalaşmağımızda xüsusi rolu olan müəllimlərimizin bu peşə bayramı münasibətilə təbriklərə qoşuluram. Allah onlara elə bir güc versin ki, dövlətimizin, Heydər Əliyev siyasətinin əbədiyyən iqtidarda qalması üçün gözəl nəsillər formalaşdırsınlar.

Oqtay müəllim, siz parlamentdə çox gözəl ənənələr formalaşdırmısınız və bu gün də bu, yüksək səviyyədə davam edir. Belə ki, parlamentdə təkcə qanunların qəbulu, onların təkmilləşdirilməsi deyil, beynəlxalq konfranslar, dinləmələr, eyni zamanda, xalqımızın milli maraqlarını əks etdirən çox önəmli konfranslar keçirirsiniz. Bu Sizin rəhbərliyinizlə neçə illərdir həyata keçirilir.

Bu il azərbaycanlıların, daha doğrusu, qərbi azərbaycanlıların Ermənistandan son deportasiyasının 30 illiyidir. Bildiyiniz kimi, bu, 1988-ci ildə, noyabrın sonu, dekabrın əvvəlində faciəvi surətdə baş verdi. Neçə gün bundan öncə möhtərəm Prezidentimizin qətiyyəti ilə, cəsarəti ilə Bakının daşnak işğalından azad olunmasının 100 illiyini qeyd etdik.

Həqiqətən də, təkcə son 100 ili götürsək, Azərbaycan xalqına qarşı daşnak ermənilərin məkrli siyasəti və bəzi imperialist qüvvələrin dəstəyi ilə istər 1905, 1918-ci illərdə, istərsə də davamlı olaraq ondan bu yana deportasiyalar həyata keçirilibdir. Ulu öndərimiz Heydər Əliyevin zamanında da bununla bağlı dəfələrlə fərmanlar imzalanıbdır. 31 mart rəsmi olaraq soyqırım günü kimi elan olunubdur. Neçə illərdir biz bunu qeyd edirik. De-

portasiya haqqında fərman imzalanıb. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev elə bir tədbir yoxdur ki, orada İrəvan mesajı verməsin, Zəngəzur, Göyçə mesajı verməsin. Sizdən xahişim ondan ibarətdir ki, imkan daxilində son deportasiyanın 30 illiyinə həsr olunmuş bir konfrans keçirilsin. Çox sağ olun.

**Sədrlik edən**. Sağ olun. Sonuncu çıxış eləyən Xanhüseyn Kazımlı, buyurun.

**X.Kazımlı**. Oqtay müəllim, mənə söz verdiyinizə görə sağ olun. Çünki bilirsiniz, Bahar xanım da bilir ki, mən bir tərəfi Qazax, bir tərəfi Horadiz, bu cəbhələrdə olan adamlardan, deputatlardan biriyəm. Mən hiss edirəm ki, cənab Prezidentimiz də ailəsi ilə birlikdə orada, əsgərlərlə görüşdə, cəbhələrdə olur. Ümumiyyətlə, bunu demək istəyirəm ki, cənab Prezident dünya üzrə əsgərini sevən prezidentlərdən biridir. Ona görə də mən hesab edirəm ki, bu deyilən sözlər hamısı havayı bir şeydir. Ümumiyyətlə, bizim cəbhədə olmağımız da, milli qəhrəmanların igidliyinin qeyd edilməsi də, şəhidlərin yad edilməsi də, bunlar Prezidentimizin göstərişi ilə olan məsələlərdir. Ona görə də mən Siyavuş Novruzovun və məndən əvvəl çıxış edənlərin təkliflərinə qoşularaq, ümumiyyətlə, Azərbaycanda parlamentimizin, deputatlarımızın xahişi ilə, səyi ilə, iradəsi ilə olan bu işlərin Prezidentimizin fəaliyyəti ilə əlaqəli şəkildə həyata keçirilməsini alqışlayıram. Ümumiyyətlə, onu demək istəyirəm ki, deputatların belə çıxışı, əlbəttə, deputatın öz fikridir, öz təxəyyülüdür. Ona görə də mən parlamentimizə müvəffəqiyyət arzulayıram. Çünki deputatlarımız da cənab Prezidentimizlə çəkici bir yerə vururlar, sözlərini bir istiqamətdə deyirlər.

**Sədrlik edən**. Çox sağ olun, iclasımız sona çatdı.